# *TARİXİ VƏ DİNİ BƏHSLƏR*

***(ŞÜBHƏLƏRƏ CAVAB)***

***FAİQ VƏLİ OĞLU***

***BİSMİLLAHİRRƏHMANİRRƏHİM***

## *MÜQƏDDİMƏ*

İslam müxalifətçiləri və istismarçılar hər gün müxtəlif planlarla öz bədxah niyyətlərini həyata keçirməklə müxtəlif vasitələrlə və hansı yolla olursa-olsun İslamın və müsəlmanların tərəqqisinin qarşısını almağa çalışırlar. Onların tə'sir yollarından biri də müsəlmanların birliyini pozmaq, onlar arasında ayrı-seçkilik salmaq və nifaq yaratmaqdır. Bir vaxtlar istismarçıların xarici işlər nazirliyindən biri belə dedi: "Zəruridir ki, Qur'anın müqəddəsliyi müsəlmanlar arasında aradan getsin, azanın səsi minarələrdən kəsilsin və müsəlmanların ən böyük

konqrəsi olan Məkkə (həcc) tə’til olunsun. Yalnız belə olan halda müsəlmanların mövcudiyyəti aradan gedər[1]”.

Son zamanlar yeni müstəmləkəçiliyin vücuda gəlməsi ilə istismarçıların uzaq ölkələrə ayaqları açılmış və mühəqqiqlər seli İslam ölkələrinə üz gətirmişlər.

Əvvəlcə şərqşünaslıq adı altında millətlərin və tayfaların müxtəlif ruhiyyələrini öyrənməyə başlayırlar. Belə ki, Mister Henfer kimi şəxslər illəlrlə müsəlman alimləri arasında ruhani libasında oxumuş və müsəlmanlar arasında təfriqə salmaqla məşğul olmuşdur.

19-cu əsrdən belə istismarçılar “qondarma dinlər” düzəltməklə məşğul olublar. Onların xidmətləri nəticəsində İranda “bəhaiyyət” və “babiyyət”, Sudanda “Qadyanilər”, Şimali Afrikada “Sunusigəri”, Hindistanda “Əhmədiyyə” və “Kəramətiyyə”, Ərəbistanda isə vəhhabilik firqələrini yaradırlar.

Əziz Azərbaycan ölkəsi Qur’anın və Əhli-beyt (əleyhimussəlam) aşiqlərindən və dost tutanlarından sayılır. Bu ölkənin 7 milyonluq cəmiyyətinin 80%-ini şiələr və Əhli-beyt (əleyhimussəlam) tərəfdarı təşkil edir. Azərbaycan xalqının 70 il ərzində İslami mərkəzlərdən və Qur’anın qurucu tə’limlərindən uzaq düşməsinə baxmayaraq, indi də bu dinin əhkamlarından daha geniş şəkildə faydalanmağa qüdrəti vardır. Bu ölkə müsəlmanları İlahi mə’rifətinə lazımi şəkildə yiyələnməyə can atırlar. ×ünki onlar Peyğəmbərin (səlləllahu əleyhi və alih) gətirdiyi əsl İslamın, Qur’anın və itrətin aşiqləridir.

Aydındır ki, 70 il ərzində dini aşkar şəkildə yaymağa imkanı olmayan bu əhali indi bu boşluğu doldurmağa çalışır.

---

[1] Британијанын кечмиш харичи ишләр назири Гладстонун сөзү.

Son zamanlar əhalinin Allahı tanımaq ruhiyyəsindən sui-istifadə edən bir dəstə çoxlu xərc çəkməklə çalışır ki, müsəlmanları özlərinin doğru əqidələrindən uzaqlaşdırsınlar. Təbiidir ki, belə bir vəziyyətdə elm əhlinin və İslama dərindən ürək yandıranların ağır mə'suliyyətləri vardır.

Bu kiçik kitab müqəddəs hədəflə - Allahın razılığını ələ gətirməkdən ötrü Azərbaycanın ixlaslı övladlarından biri, mühəqqiq və İslamşünas Faiq Vəli oğlunun vasitəsi ilə təhqiq olunmuşdur. Bu təhqiq işi parlaq çıraq kimi öz həmyerliləri arasında nurlanmaqdan ötrü təqdim olunub. Ola bilsin ki, bununla da öz ağır vəzifəsinin bir qismini Allah dərgahında yerinə yetirə bilsin.

Qarşınızdakı bu kitab Azərbaycanın mö'min müsəlman alimləri və institut tələbələri tərəfindən şiələrin ali mərceyi təqlidi Ayətullahil-üzma Şeyx Mühəmməd Fazil Lənkəranidən etdikləri xahişə əsasən, tənzim olunmuşdur. Ümidvarıq ki, bu sahədə bundan daha geniş şəkildə təhqiqatlar aparılsın və müsəlmanların ixtiyarına qoyulsun.

Bu kitabın bütün mətləblərini mən oxumuşam və yazının bəyan tərzi tamamilə səhihdir. Bə'zi yerlərdə müxtəsər islahlar və məsləhətlər verilmişdir. Ümidvaram o ölkənin müsəlmanlarına da bu təhqiq fayda versin. Uca Tanrıdan müəllifin, naşirin və oxucunun tofiqini istəyirəm.

Qum. Doktor Əqiqi Bəxşayeşi
Avqust. 2000-ci il
1421-ci hicri qəməri ili

## *MÜƏLLİFDƏN*

Qur'ani-Məcid buyurur:

***"O kəslər ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır![1]"***

İslam dini ağıla, məntiqə əsaslanan və bəşərə xoşbəxtlik gətirən İlahi bir dindir. İnsan öz-özünə yaranmayıb. Onun bir yaradanı var və o Yaradan bəşəri səadətə çatdırmaqdan ötrü xüsusi qayda-qanunlar qoymuşdur.

Bütün şiə alimlərinin əqidəsinə əsasən, İslamın əsl prinsiplərindən biri də budur ki, hər kəs dinin "əsli"ni (Üsuliddini)[2] təqlid yolu ilə deyil, ağıl və dəlillə qəbul etməlidir. Hər kəsin öz ağlı səviyyəsində Allahı, Onun ədalətli olmasını, Peyğəmbərini, mə'sum İmamları və Qiyaməti qəbul etməkdə dəlili olmalıdır. Bu yolda ağıl və bilik sahiblərindən məsləhət almaq və onların dəlillərindən faydalanmaq heç də qadağan deyildir. Doğurdan da, hər hansı bir şəxsin kiminsə dediyi dəlil və məntiqdən düzgün yolla nəticə alması, heç vaxt qəbahət sayılmaz.

Haqqında bəhs edəcəyimiz mövzu, hazırkı dünyada özünəməxsus rol oynayan bə'zi firqələr, onların yaranma tarixi və fəaliyyətləri, o cümlədən onlar barəsindəki həqiqətlərdən söz açmaqdan ibarətdir.

---

[1] "Зумәр" сурәси, 18-чи ајә.

[2] Динин әсли бешдир: ***1.*** Тәвһид; ***2.*** Әдл; ***3;*** Нүбүввәт; ***4.*** Имамәт; **5.** Мәад.

Hər hansı bir məzhəbin yaranma və meydana gəlmə tarixini, o cümlədən nə dərəcədə haqlı olduğunu araşdırmaq hər bir müsəlmanın əsas vəzifələrindən biridir. Bu işdə də tarixi mənbələri araşdırmağın çox böyük tə’siri vardır.

İslamda dörd sünni məzhəbinin yaranmasının əsl səbəbini açıqlayıb əziz müsəlman qardaş və bacıların nəzərinə çatdırmağı özümə vəzifə borcu hesab edirəm. Onu da qeyd etmək lazımdır ki, bu kitabda yazılan hər bir mətləb tarixi sənədlərə və faktlara əsaslanır. Həqiqət nə qədər acı olsa da, deyilməlidir. Bə’zən insan mə’lumatsızlıq üzündən və ya dünya malının şirinliyinə görə əqidəsində elə səhvlərə yol verir ki, daha ondan ötrü dünya və Axirətdə bağışlanmağa yer qoymur. Hər bir fikir və iddia dəlil və fakt əsasında olmalıdır. Ona görə də əvvəldə zikr etdiyimiz ayəni bu sözə ən gözəl şahid kimi göstərə bilərik. Ən yaxşı söz, əsl həqiqətdə ən düzgün əqidədir. Allahdan diləyimiz budur ki, bizləri Axirət dünyasına üzü qara aparmasın! Əqidəmiz sağlam əql, düşüncə və dəlil əsasında olsun!

Faiq Vəlioğlu

## *MÜXTƏLİF İSLAMİ MƏZHƏBLƏRİN YARANMASINA QISA BİR BAXIŞ*

Bəri başdan onu da qeyd etməliyik ki, əsl həqiqətə əsaslanan, bütün əhkam və əqidəsi Qur’an, sünnət, ağıl və məntiqə əsaslanan şiə məzhəbi heç də sonradan və kiminsə əli ilə yaranmayıb. Şiələr İslam meydana gələn gündən olublar. Onlar Allahın göndərdiyi bütün qanun-qaydaları və Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhih sünnətini qəbul edirlər. Həmçinin, şiələr Peyğəmbərin (səlləllahu əleyhi və alih) özündən sonra tə’yin etdiyi hər cür çirkinlik, günah, xəta və səhvlərdən uzaq olan on iki mə’sum İmamın o Həzrətdən sonra mütləq rəhbərliyinə e’tiqad bəsləyir və onların göstərişlərinə əməl edirlər. Bəs, şiənin sonradan necə yaranıb vücuda gəlməsi bəhsinin özü düzgün olmaz. ×ünki şiə - yə’ni, əsl həqiqi İslam, şiə - yə’ni, həqiqət tərəfdarı, şiə - yə’ni ağıl, məntiq və tutarlı dəlillərə əsaslanan və hər bir zamanda İslam dininin əsl çöhrəsini canlandıran, həmçinin, heç vaxt zillət və zülmü qəbul etməyə razı olmayan, əqidəsini, imanını hər hansı maddiyyata satmayan əsl İslam.

Bu günə kimi dünyada heç bir məzhəbin başbilən alimləri, şiə alimlərinin “bir stol arxasında oturub hər kəsin öz əqidəsi barəsində doğru dəlilini sübut etməsi iddiasına” cavab verməyiblər. İstər müsəlman və istərsə də qeyri-müsəlmanlardan olan məzhəb iddiaçılarından heç birinin bu işə girişməyə cür’ətləri olmayıb. Həmişə uzaqdan-uzağa şiələr barəsində böhtanlar yaymış və heç bir əsas olmadan əsl İslam carçılarının üstünə pərdə atmaq

istəmişlər. Tarix səhifələrini diqqətlə araşdıran hər bir şəxs, bu həqiqəti yaxşıca dərk edər. Hətta iş o yerə çatır ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından yarım əsr keçməmiş, onun qucağında böyüyən və müsəlmanların mə'sum İmamı kimi Peyğəmbər (səlləllahu əleyhi və alih) tərəfindən e'lan olunan övladı İmam Hüseyn əleyhissəlamı zəmanəsinin şərabxoru, özünü İslam xəlifəsi sayan Yezid kimi şəxslər "xarici" adı ilə şəhadətə çatdırır.

Nə isə, bu barədə bəhs etməkdən ötrü xüsusi kitablar lazımdır. Bizim əsl hədəfimiz başqa şeydir. Necə oldu ki, İslam dini dörd məzhəbə parçalandı? Bunun səbəbini qısaca olaraq dörd dəlillə isbat etmək olar.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından təxminən iki əsr sonra yə'ni hicrətin 150-ci ilində Hənəfiyyə, 179-cu ilində Malikiyyə, 204-cü ilində Şafiiyyə və 241-ci ilində Hənbəli məzhəbləri vücuda gəlirlər. Sonralar isə onlarca İslam məzhəbi meydana çıxır və hər biri özünün haqq olmasını iddia edir. Təxminən hicrətin yeddinci əsrində İslam firqələri həddini aşdığına görə Misir padşahı Məlik Zahirin əmrinə əsasən, bu dörd məzhəbdən başqa bütün İslam məzhəbləri qadağan olunur. Bə'zi tarixçilər bu məzhəblərin vücuda gəlməsini belə izah edirlər.

***Birinci:*** İslam dövləti Peyğəmbərdən (səlləllahu əleyhi və alih) bir müddət sonra müxtəlif xırda dövlətlərə parçalanır. Təbiidir ki, hər dövlətin alimləri öz ölkələrinin siyasətinə tabe olur və o dövlətin iddia etdiyi məzhəbi müdafiə edirdilər.

***İkinci:*** Müctehidlərin müxtəlif dəstələrə bölünməsi, hər bir dəstənin xüsusi şər'i məktəb təşkil etməsi, özləri üçün başqa məzhəblərin iddiasını rədd etməkdən ötrü xüsusi şagirdlər hazırlamaları, hər bir dəstənin özlərinin haqq

olmasını iddia etməsi və bununla da, əsl elmi müstəqillik ruhiyyəsinin ölməsi səbəb olur ki, hərə özü üçün bir məzhəb təşkil etsin.

***Üçüncü:*** Bə’zilərinin müctehidliyə elmləri çatmadığı və ləyaqətləri olmadığı halda fətva və hökm vermələri, onlardan ötrü isə heç bir qayda-qanunun olmaması! Nəhayət, dördüncü əsrdən dində ictihad (yə’ni, elmi rə’yin və müctehid olmağın) qapısının bağlanması[1] və yalnız hər kəsin öz başçılarının sözlərinə kifayət etmələri. Yə’ni, əgər mə’sum olmayan hər hansı məzhəb başçısı nə deyibsə, odur. Daha bizim yenidən bu barədə təhqiq aparıb onun səhvlərini düzəltməyə ixtiyarımız yoxdur. Yə’ni Qiyamətə kimi, heç bir isməti olmayan, xəta, səhvlərdən uzaq olmayan bir şəxsdən təqlid etmək!

***Dördüncü:*** Din alimləri arasında "özlərini öymək" (mənəm-mənəmlik) həsədlik və müxtəlif əxlaqi xəstəliklərin çoxalması! Elmi sahədə çalışmaq ruhiyyəsinin ölməsi, alimlərin bir-birinə e’timadlarının zəifləməsi, istədikləri şəxsin elmi məqamını təhqir edib aşağı salmaları və ya istədiklərini mənsəb başına qoymaları[2].

Bütün bunlar səbəb olur ki, müxtəlif firqələr vücuda gəlsin və hər kəs özünün iddiasını irəli sürsün.

---

[1] Шиәләр һеч вахт елми рә’ј вә ја мүҹтеһидлик гапысыны бағламамыш вә инди дә Гур’ан, сүннәт, рәвајәт, ағыл вә мәнтиг үзрә олан мүҹтеһидләри гәбул едир.

[2] "Фигһул-Мугарин"ин нәглинә әсасән "Хүласәтүл-тәшриул-Ислами", сәһ. 341.

## *ƏRƏBİSTAN*

Ərəbistan dünyanın ən böyük yarımadalarından biridir. Coğrafi mövqeyinə görə dünyanın cənub-qərbi Asiya qismətində yerləşir. ölkənin ətrafını Fars körfəzi, Omman körfəzi, Ərəb dənizi, Ədnan körfəzi və Qırmızı dəniz suları əhatə edib. Şimal tərəfdən geniş ərazidə İraq və İordaniya ölkələri ilə həmsərhəddir. Bu yarımada üç milyon kv km məsafəsi ilə İrandan təxminən iki dəfə, Fransadan 6 dəfə, İtaliyadan 10 dəfə və İsveç ölkəsindən 80 dəfə böyükdür.

Torpaq sahəsinin çox qismətləri səhralıq və oturaq tayfaların yaşadığı məskənlərdir. Əksər əlaqələri başqa ölkələrlə dəniz vasitəsilə ələ gəlir. Səhralardan əlavə yaxşı məhsul verən dağları və rütubətli torpaqları vardır.

## *ƏRƏBİSTANIN ƏHALİSİ*

Həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) əsrində Ərəbistanın əhalisi özünün qara xətlə yazılmış tarix səhifələrini yaşayırdılar. Əhali hər bir sahədə cəhalətdə idi. Yaşayış bu xalq üçün öz qiymətini əldən vermişdi. İllərlə davam edən cahilanə cənglərdən və xurafat adətlərdən əhali cana doymuşdu.

Köçəri ərəblər qüdrətli hökmdarlar qarşısında baş əymirdilər. Hər kəs öz qəbiləsinin qanunları ilə rəftar edərdi. Buna görə də, başqa millətlərə zülm etmək, hətta başqa qəbilələrdən oğurluq, qarət, namusa sataşmaq, yalan və xəyanət etməyi heç də pis iş saymırdılar. Bununla

bərabər ərəb tayfaları qonaqpərvər və qənaətlə yaşayan insanlar idilər. Günlərinin çoxunu səhralarda keçirər, cahilanə şe'rlər yazar, öz dəvələrinə onlarla ad qoyar, əfsanələr xəlq edər və şəmşirlərini öz qüdrətləri hesab edərdilər. Köçəri ərəblərin rəsmi surətdə hökuməti olmayıb və bu tayfalar heç bir hökumətə də tabe olmayıblar. Onların cəmiyyətini qəbilələr və tayfalar təşkil edirdilər. Hər bir qəbilə onlarca ailədən təşkil olunmuşdu. Qəbilənin başçısı olardı. Adətən bu başçılar ağsaqqal kişilərdən təşkil olunar və tayfa fəqət onun hökmünə əməl edərdi.

Qəbilə başçısı öz məqamını özünün şücaəti, qəhrəmanlığı və ən əsas cənglərdə yaxşı iştirakı ilə ələ gətirərdi. Bundan əlavə, qəbilə başçısı tayfa arasında olan çaxnaşmaları və ixtilaflı məsələləri həll edərdi. Qəbilə başçısı tənha hökm vermək hüququna malik deyildi. O, həmçinin, mühüm məsələlərdə yüksək məqamlı ailə başçılarını bir yerə yığıb onların nəzərini öyrənərdi.

Qəbilə başçısı öldükdən sonra qəbilənin ağsaqqalları bir yerə yığışıb onun naibini bu məqama tə'yin edərdilər. Əksər hallarda əvvəlki qəbilə başçılarının övladları ya da onların yaxın qohumlarından bu məqama seçilərdi. Bə'zən bu məsələyə görə uzun ixtilaflar irəli gələr, nəhayət cəngə səbəb olardı.

Azad olunmuş qullar da öz hüquqlarını saxlamaq üçün çox vaxt qəbilə başçısı ilə qohum olardılar.

## *VƏHHABİYYƏT öZÜNÜ "SƏLƏFİYYƏ"NİN DAVAM×ISI HESAB EDİR*

Vəhhabiyyət öz əqidəsinin əslini "Hənbəliyyə"nin yaratdığı "Sələfiyyə" və ya "əhli-hədis" firqəsinə nisbət verirlər.

Əsl məsələ budur ki, özlərini "Sələfiyyə" adlandıran bir dəstə alim o cümlədən Əhməd ibni Hənbəli (161-241-ci hicri ili) Qur'an ayələrində və hədislərdə Allahın sifətləri barəsində olan xəbərləri qəbul edirlər. Lakin onların mə'nasında heç bir batini ifadəyə e'tiqad bəsləmirlər. Əslində onların əqidəsi Allahı cisim şəklində təsəvvür etməyə gətirib çıxarır. Məsələn, onların e'tiqadına əsasən, ayələrdə Allah barəsində qeyd olunan "yəd" (əl) həmin lüğəvi mə'nasında işlənməlidir. Lakin bu əlin hansı şəkildə olmasını mə'nalandırmağa heç kəsin haqqı yoxdur.

Halbuki, bu dəstənin müqabilində şiələr və başqa məzhəblər belə olan qeydləri batini mə'nalarına - yə'ni adi insanlar içində işlənən ifadə ilə mə'nalandırırlar. Həmin "yəd" (əl) barəsində belə qeyd olunur: Allah cisim deyil ki, əli də olsun, əksinə, "əl"dən məqsəd həmin "qüdrət"dir.

Əhməd ibn Hənbəli bu əqidəni daha şiddətlə davam etdirir. Hətta iş o yerə çatır ki, İslam firqələri arasında Əhməd ibn Hənbəlini "Əhli hədis" (Sələfiyyə) firqəsinin imamı adlandırırlar. Əhməd ibn Hənbəli hədis və ayələr əsasında İslam dininin əsl əqidəsini yazır və kəlam elminə məşğul olmağa icazə vermir. Sonralar başqa əhli-sünnət firqələri Hənbəlinin nəzərini rədd etməyə başlayırlar. Belə ki, Əbülhəsən Əş'əri əqli və dəlili qəbul etməyən Hənbəli

firqəsindən çıxıb təzə məzhəb meydana gətirir və bu məzhəbdə əqli və məntiqi əsl bilir. Buna görə də bir çoxları Əş'ərinin ardınca gedirlər. Beləliklə, Əş'əri firqəsi vücuda gəldikdə əhli-hədis (Hənbəliyyə) unudulmağa başlayır. Lakin tamamilə aradan getmir. Nəhayət, bu məzhəb (Hənbəli) hicrətin 6-cı əsrində Hənbəli alimlərindən sayılan Əhməd ibn Teymiyyə Hərrani Diməşqinin (728-ci ildə vəfat edib) vasitəsilə təbliğ olunmağa başlayır. İbni Teymiyyə Əhməd ibn Hənbəlinin Allahın sifətləri barəsində olan xəbərlərini olduğu kimi ifadələndirir və bu əqidəni "Sələfiyyə" adlandırır. Bununla belə, İbni Teymiyyə həmin əqidədən əlavə özündən təzə e'tiqadlar vücuda gətirir və bu e'tiqadı da "Sələfiyyə" firqəsinə nisbət verir. Bu e'tiqadların xülasəsi aşağıdakılardan ibarətdir:

***1.*** *Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrini ziyarət etməkdən ötrü səfər etmək bid'ət və şirk sayılır.*

***2.*** *Peyğəmbər (səlləllahu əleyhi və alih) Əhli-beytinə və Allah yanında yüksək məqamları olanlara təvəssül etmək, o cümlədən onlardan yadigar qalan şeylərə təbərrük etmək tövhidlə düz gəlmir və şirkdir.*

***3.*** *Əhli-beyt (əleyhimussəlam) barəsində nəql olunan çoxlu rəvayətləri, hətta "Sihah" müsnədlərdə və Əhməd ibn Hənbəlinin kitabında olan hədisləri inkar edir.*

Beləliklə, İbn Teymiyyə vəhhabiyyətin vücuda gəlməsi üçün zəminə yaradır.

## *VƏHHABİLİK FİRQƏSİNİN ƏSASINI QOYAN KİMDİR?*

İlk dəfə vəhhabilik firqəsini vücuda gətirən və onun yayılmasına çalışan şəxs Mühəmməd ibn Əbdülvəhhab olub. Bu şəxs təxminən 1720-ci ildə Ərəbistanın Nəcd vilayətinin alimlərindən biri olub.

Bu firqənin adının "vəhhabi" adı ilə tanınmasını vəhhabilərin özləri heç də qəbul etmirlər. Onlar firqənin adını bu şəxsin adı sayılan "Mühəmməd" ilə əlaqələndirib "Mühəmmədiyyə" adlandırmağı münasib bilirlər.

Bununla belə, daha münasib olar ki, əvvəlcə bu firqənin meydana gəlməsinin banisinin yaşadığı ölkə və şəhər barəsində qısaca mə'lumat verək. Sonradan isə Əbdülvəhhab oğlu Mühəmmədin həyatına nəzər salaq.

## *İBNİ TEYMİYYƏ KİMDİR?*

Qeyd etmək lazımdır ki, əgər daha dərinliyə getsək vəhhabiyyət firqəsinin əsl kökü təxminən 1280-cı ildə anadan olmuş Hənbəli firqəsinin böyük alimlərindən biri Əbül-Əbbas Əhməd ibn Əbdül Həlim Hərrani (İbni Teymiyyə adı ilə məşhur olan) ilə bağlıdır.

Bu şəxs ilk dəfə olaraq bütün İslam firqələrinin əqidəsinə zidd olaraq və İslamın əslində olmayan bir sıra yanlış e'tiqadlar meydana gətirir. Həmin dövrdə bütün İslam firqələrinin başçıları İbni Teymiyyəni şiddətlə məzəmmət edirlər. Ona görə də şəriət hökmünə əsasən,

onu həbs edib bir müddət zindanda saxlayırlar. O vaxtdan İslamın əleyhinə iş görmək istəyənlər həmin yolla müsəlmanlar arasında ixtilaf salmaq üçün bəhanə ələ gətirirlər. Qeyd etdiyimiz kimi İbni Teymiyyənin təzə əqidəsi İslamın 600 illik meydana gəldiyi dövrdə heç vaxt görünməmişdi. Ona görə də müxtəlif məzhəblər onu şiddətlə tə’qib edirlər.

Qısa şəkildə bu şəxsin həyatını belə qələmə vermək olar: Müxtəlif tarixi mənbələrə əsasən, İbni Teymiyyə təxminən 1280-cı ildə (hicri ili ilə 661-ci il, rəbiül-əvvəl ayı) Ərəbistanın İraq nahiyəsində yerləşən Müzər məntəqəsinin Hirran adlı yerdə anadan olub. Bu şəxsin atası Hənbəli firqəsinin böyük alimlərindən biri idi. Monqolların hücumlarından sonra Şama qaçmışdı. İbni Teymiyyə iyirmi yaşında ikən atasını əldən verir və özü atasının yerində oturub tədrislə məşğul olur. Təxminən 31 yaşında Məkkəyə həcc səfərinə gedir.

Bir neçə il sonra Misirin Qahirə şəhərinə gedir və tədrislə məşğul olmağa başlayır. Elə bu vaxtlar Allahın sifəti barəsində görünməmiş və İslam əqidəsinə zidd fətva verir. Buna görə də, bütün İslam məzhəblərinin müxalifəti ilə qarşılaşır. Onu tədris etməkdən məhrum edirlər. Sonralar yenə də sakit durmayıb o zaman Misirdə ehtiram olunan və qəbri orada olan Seyyid qadın Nəfisə (İmam Hüseyn əleyhissəlamın övladlarındandır) barəsində bə’zi sözlər deyir. Bu zaman adi əhali də ondan üz çevirir[1].

Bir müddət sonra monqollar Ərəbistana hücum edirlər. İbni Teymiyyə onlara qarşı çıxır. 1310-cu ildə monqol Qazan Xanın müqabilində müharibədə iştirak edir.

---

[1] Сәдәфи, 7-чи чилд, səh. 19 (Әли Әскәр Фәгиhинин “Bəhhабиjан” китабынын нәглинә әсасән).

Sonralar yenə də öz nəzəriyyələrini davam etdirir. Bu dəfə təzədən onu həbs edib zindana salırlar. Axırıncı dəfə zindana düşməsinin səbəbi Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin ziyarət edilməsinin haram olması haqqında hökm verdiyinə görə idi. Nəhayət, təxminən hicri qəmərinin 728-ci ilində zindanda dünyadan köçür.

Tarixçi Şəvkani yazır ki, Dəməşqin qazisi Malikin fətvası ilə İbni Teymiyyə həbs olunur və onun kafir olması barəsində də hökm verir. Bundan sonra şəhərdə e’lan edirlər ki, hər kəs İbni Teymiyyənin əqidəsini qəbul etsə, onun qanı halaldır[1].

Sonralar həmin əqidə əsasında yə’ni İbni Teymiyyənin əqidəsini diriltməkdən ötrü təxminən 400 il sonra "Vəhhabiyyət" firqəsi əmələ gəlir. Bu işin banisi Şeyx Mühəmməd İbni Əbdülvəhhab idi. Nəcd şəhərində doğulmuş Şeyx Mühəmməd bu əqidəni diriltməyi qərara alır[2].

---

[1] "Фəватүл-вəфајат", 1-чи чилд, сəh. 77, "Əл-Вафи бил-вəфајат", 7-чи чилд, сəh. 18, "Бəдрит-тале", 1-чи чилд, сəh. 67.

[2] Ибни Тејмијјə барəсиндə hазырда мөвчуд олан китаблардан ашағыдакылары гејд етмəк олар:

***1.*** Ибни Кəсир "Китабул-бидајə вəн-ниhајə";

***2.*** Сəлаhəддин Сəфəди "Əл-Вафи бил-вəфајат";

***3.*** Ибни Шакир Кəтəби "Вəјатүл-вафијан";

***4.*** Зəhəби "Тəзкирəтүл-Һүффаз";

***5.*** Ибни Бəтутə "Сəфəрнамə", Төhфəтул-Һуззар";

6. Əбдүллаh ибни Əсəд Јафи "Мир'атул-Чəнан";

***7.*** Тəгиəддин Сəбəки "Шифаис-сигам фи зијарəти хəјрил-əн'ам вə дүррəтүл-мүфидə фи рəдди əла Ибни Тејмијјə;

***8.*** Ибни Һəчəр Мəкки "Чөhəрул-мəнзəм фи зијарəти гəбрин-нəбијјил-мүкəррəм вəд-дүррүл-каминə фи əʼјанил-мати саминə";

***9.*** Кəмалəддин Зəмлəкани (727-чи hичри илиндə вəфат едиб) "Əд-дүррəтүл-мүзиəти фи рəдди əла Ибни Тејмијјə".

## *VƏHHABİLİYİN İLK YAYILMA MƏRKƏZİ*

Necə ki, əvvəlcə qeyd etdik İbni Teymiyyədən təxminən 400 il sonra onun rədd olunmuş əqidəsi Şeyx Mühəmməd ibni Əbdülvəhhab adlı şəxs tərəfindən canlandırılmağa başlanır. Şeyx Mühəmməd ibni Əbdülvəhhabın özünün həyatı barəsində danışmazdan əvvəl onun yaşadığı ölkə barəsində qısa mə'lumat vermək istərdik.

Qeyd etdiyimiz kimi Şeyx Mühəmməd ibni Əbdül-Vəhhab Səudiyə Ərəbistanının Nəcd vilayətində dünyaya gəlmişdir. Nəcd vilayətinin elə bir cəmiyyəti var idi ki, Şeyx Mühəmmədin əqidəsi və tə'limlərini qəbul etməyə razı olurlar. Elə ona görə də vəhhabiliyin əsl yayımı həmin məntəqədən başlayır. Bu iddianı belə bir hadisə sübuta yetirir ki, vəhhabilik əqidəsi bu məntəqədə yayıldıqdan sonra başqa ölkələr bu əqidəni heç də qəbul etmirlər. Ona görə də vəhhabilik ilk dəfə Hicazdan kənara təcavüz etmir. Nəcd vilayəti geniş Ərəbistan yarımadasının bir qismətini əhatə edir. Nəcd kəlməsi lüğətdə "hündür yer" mə'nasındadır. Bu məntəqə başqa yerlərdən yüksəkdə olduğuna görə oranı bu adla adlandırmışlar.

Nəcd vilayətinin mərkəzi şəhəri hazırkı Ərəbistan yarımadasının paytaxtı olan Riyaz şəhəridir. Bu ölkənin başqa tanınmış məntəqələrindən Qəsim şəhərinə yaxın

---

Һәмчинин, онларча мәшһур Ислам алимләри бу јанлыш әгидәнии чәмијјәтдә јајылмасынын гаршысыны алмагдан өтрү китаблар јазмышлар.

olan Üneyzə və Bureydə məntəqələri və bir çox başqa məntəqələri vardır.

Nəcd cənub tərəfdən Yəmamə və Əhqad, şərq tərəfdən İraq, Əhsa və Qətif, şimal tərəfdən Şam səhrası və nəhayət, qərb tərəfdən Hicaz məntəqəsi ilə əhatə olunmuşdur.

Bu ölkənin əhalisi barəsində tarixçi Alusi yazır: Nəcd əhalisi iki qismə - şəhərdə və çöllükdə yaşayanlara bölünürdü. Şəhərlilər köçərilərə nisbətən az idilər. Nəcd əhalisinin ən çox yediyi şey çəyirtkədir. ×ünki onların ən dadalı yeməyi çəyirtkədən hazırlanırdı.

Xülasə, (qədimdə) Nəcd əhalisi nə tezliklə öz diyarlarını tərk edər və nə də başqalarının onların torpağına gəlməsinə mail idilər[1].

Tarixçi Hafiz Vəhbə öz kitabında yazır: "Vəhhabilərin ilk də'vəti zamanı Nəcd əhalisi qarət, oğurluq və adam soymaqdan başqa fikirləri yox idi. Bunları özləri üçün iftixar hesab edirdilər[2]".

O vaxt onların məntəqəsindən yalnız bac verən ticarət karvanı salamat keçib gedə bilərdi. Bu ölkədə heç bir qayda-qanun yox idi. Padşahlar və əmirlər istədiklərini edirdilər. Şəhərlilər adətən[3] köçərilərlə müharibə edərdilər.

---

[1] "Тарихи Нәчд", səh. 28.
[2] "Чәзирәтүл-Әрәб фил-гәрнил-ишринә", səh. 313.
[3] "Вәhhабијан", səh. 230.

## *ŞEYX MÜHƏMMƏD İBNİ ƏBDÜLVƏHHAB BARƏSİNDƏ BİR NE×Ə SUAL-CAVAB*

***Sual: Şeyx Mühəmməd ibni Əbdülvəhhabın İslam dinində şübhə yaradan batil əqidəyə meyl etməsinə və həmçinin, onun bu əqidəni yaymağa çalışmasına nə səbəb olur?***

***Cavab:*** Əgər bütün şəxsi qondarma əqidələri araşdırsaq görəcəyik ki, birinci dəfə bu əqidənin sahibi özünün şəxsi fikrini bildirir. Lakin sonralar əhali arasında şöhrət tapır və öz-özünə yayılmağa başlayır. Ola bilsin ki, e'tiqad sahibi bunun cəmiyyətdə yayılması fikrində olmasın.

Elə ki, Mühəmməd ibni Əbdülvəhhab yalançı Peyğəmbərlərin tarixinə baxır və araşdırma aparır, avam və adi camaatın fikrini və meylini başa düşür. Bununla da cəmiyyətdə ad və şan-şöhrət qazanmaqdan ötrü xəyali və özünə peyğəmbərlik adı verilməsini istəyənlər kimi olmaq istəyir.

Mühəmməd ibni Əbdülvəhhab həyatında çoxlu müşkülatlarla üzləşdi. Ümumiyyətlə, insanın cəmiyyətdə mövqeyi olmadıqda romantik fikirlər xəyalına düşür. Bununla da, əldən getmiş şəxsiyyətini uca məqama qaldırmaq istəyir. Mühəmmədin alim və ali ruhani olan atası heç onun fikrini qəbul etməmiş və hətta onu divanə adlandırmışdır. Bundan əlavə ustadı da onun əleyhinə çıxmış və ağlını əldən verdiyini bildirmişdir. Beləliklə, Mühəmməd ibni Əbdülvəhhabın şəxsiyyəti ən aşağı dərəcəyə enmişdi. O çalışırdı ki, özünə cəmiyyətdə yüksək mövqe tutsun, təzə aldadıcı məzhəb yaratmaqla və bütün

müsəlmanları kafir adlandırmaqla əhalinin diqqətini cəlb etsin və ad çıxarsın. Bunun bir yolu da "özünü peyğəmbərlik" məqamına vurur. Şayiə yayır ki, mən Peyğəmbər olmasam da, ilham alıram. Allah mənə göstəriş verir. Şeyx Mühəmməd özünün xütbələrinin birində belə deyir:

"Peyğəmbərlər var ki, Allahdan vəhy yox, ilham alırlar. Necə ki, mən özüm beləyəm".

Başqa bir yerdə belə deyir:

"Mən yuxu gördüm və yuxuda Allah mənə xəbər verdi ki, Kəbə evinin ətrafında dövr edib və həcərül-əsvədə əllərini sürtənlər müşriklərdir".

Beləliklə, yuxu əsasında müsəlmanlara qarşı fətva verir. Bütün bunlardan əlavə Şeyx Mühəmməd çoxlu ölkələrə səfər edir, o cümlədən Türkiyə, İran, İraqa səfərləri ona daha çox cəsarət verir.

***Sual: Şeyx Mühəmməd ibni Əbdülvəhhabın neçə övladı olub?***

***Cavab:*** Şeyx Mühəmməd ibni Əbdülvəhhabın dörd övladı olub. Böyük oğlu atasının yolunu davam etdirib. Həsən və Hüseyn adlı oğlanları isə onun əqidəsinə qarşı çıxmış və onunla mübarizə aparmışlar. Bu yolda hər ikisi şəhid olub. Hüseyn adlı oğlunun başını vəhhabilər mişarla kəsirlər. Amma Əli adlı başqa oğlunu yolkəsən quldurların əli ilə öldürülür. Bütün bunlar Şeyx Mühəmməd ibni Əbdülvəhhabın ümumi həyatına qısa bir baxış idi. İndi də onun həyatı ilə daha yaxından tanış olaq.

## *ŞEYX MÜHƏMMƏD İBNİ ƏBDÜLVƏHHABIN HƏYATI*

Şeyx Mühəmməd ibni ƏbdülVəhhab təxminən 1706-cı ildə (1115-ci il hicri) yə'ni İbni Teymiyyədən 400 il sonra Nəcd vilayətinin Üyeynə məntəqələrindən birində anadan olur. Atası Əbdülvəhhab bu şəhərin qazisi idi. Şeyx uşaqlıqdan təfsir, hədis və əqaid kitablarını oxumağa çox meyl göstərir. Hənbəli fiqhini öz atasının və Hənbəli məzhəbinin böyük alimlərindən ələ gətirir. O, cavan vaxtlarından Nəcdin dini alimlərini pis qələmə verməyə başlayır. Həcc ziyarətinə getdikdən sonra Mədinəyə gəlir. Bu şəhərdə müsəlmanların Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinə yaxınlaşmasını və ondan şəfaət istəməsini inkar edir. Sonra Nəcdə qayıdır. Oradan da Şama getməkdən ötrü Bəsrəyə gedir. Bir müddət Bəsrədə qalıb əhalinin e'tiqadları ilə müxalifətçilik edir. Lakin Bəsrə camaatı onu öz şəhərlərindən qovurlar. Vəhhabiliyin banisi Bəsrə ilə Zübeyr şəhəri arasında az qalır aclıqdan, istidən və piyada yol getməkdən həlak olsun. Sonradan bir nəfər ona kömək edib Zübeyr şəhərinə aparır. Oradan da Hüreymələyə gəlir. Bu vaxtlarda 1726-cı ildə (1139-cu hicri qəməri ilində) atası Əbdülvəhhab Nəcdin Üyeynə şəhərindən Hüreymələ şəhərinə gəlir. Şeyx Mühəmməd atasının yanına gəlir və onun yanında müxtəlif kitablar oxuyur. Elə buradaca Nəcd əhalisinin əqidəsini inkar etməyə başlayır. Buna görə də onunla atası arasında böyük ixtilaf düşür. Həmçinin, Nəcd əhalisi onunla müxalifətçiliyə başlayır. Bu iş bir müddət davam edir.

Nəhayət, 1742-ci ildə (1153-cü hicri ilində) atası Şeyx Əbdülvəhhab dünyadan köçür.

Şeyx Mühəmməd atası öldükdən sonra öz əqidəsini daha çox izhar edərək yaymağa başlayır. Bir dəstə camaat onun sözünə aldanıb ondan tərəfdarlıq edirlər.

Şeyx Mühəmmədin təbliğatının ən pis cəhətlərindən biri də bu idi ki, onun yalançı əqidəsi ilə müvafiqətçilik etməyən müsəlmanları "hərbi kafir" adlandırır və onların canını, malını və namusunu halal e'lan edirdi. Bununla da, onun əqidəsi dilə-dişə düşərək yayılmağa başlayır. O, Hüreymələ şəhərindən Üyəynə şəhərinə gəlir. Şəhərin başçısının onun əqidəsini qəbul etməsinə görə camaat da onu qəbul edir.

Hər kəs onun əqidəsini qəbul etsəydi, onunla bey'ət edirdi. Hər kəs onun müqabilində dursaydı, qanını halal edirdi və mal-dövlətini tərəfdarları arasında bölüşdürürdü[1]. Əgər insan bir azca özünün Allah tərəfindən verilən dərrakəsini işə salsa, onda bu əqidənin və ona e'tiqad bəsləyən şəxslərin batil yolda olmasını aşkar şəkildə başa düşər. İndi də nahaq qan tökmək, ölkələrdə ixtilaf salmaq və müsəlmanlar arasında qan tökməklə məşhur olan bu firqənin banisi nə Peyğəmbər olub, nə ona Allah tərəfindən vəhy gəlib və nə də İmamət və xilafət məqamında olub. Bununla belə, hansı qanlı cinayətlərə fətva verib və hansı işlər görüb Allah bilir. Onlardan bə'zilərini gələcək bəhslərimizdə tarixi sənədlərə əsasən, bəhs edəcəyik. Həmin vaxtlarda Şeyx Mühəmmədin əqidəsini qəbul etməyən Ehsa şəhərinin Fusul məntəqəsinin əhalisindən üç yüz nəfəri qətlə yetirirlər və müsəlman ola-ola, Allahı onun göndərdiyi Peyğəmbəri və Qur'anı qəbul etdikləri

---

[1] "Тарихул-мәмләкәти әрәбиjjәтис-Сәудиjjә", 1-чи чилд, сәh. 51.

halda onlara müşrik adı qoyub bu bəhanə ilə mal-dövlətlərini öz aralarında bölüşdürürlər.

Beləliklə, Ali Səud nəsli ilə tanınmış hökmranlar Mühəmmədə köməklik göstərir və öz mənafelərinə görə ona tərəfdarlıq edirlər. Nəhayət, Şeyx Mühəmmədin tərəfdarları Nəcd ölkəsinin mərkəzi sayılan indiki Riyaz şəhərini fəth edir, bütün e’tiraz edənləri boyun əyməyə məcbur edirlər. Şeyx bu vaxt əhalidən yığılan bütün mal-dövləti hakimin öhdəsinə qoyub özü tədrislə məşğul olmağa başlayır. Nəhayət, 1790-cı ildə (1204-cü hicri ilində) 89 yaşında dünyadan köçür[1]. Lakin onun ardıcılları heç də onun fikrindən əl çəkmirlər. Tarixdə törətdikləri dəhşətli cinayətlərdən bə’zilərini bundan sonrakı bəhslərdə gətirəcəyik.

## *NƏYƏ GöRƏ ƏRƏBİSTANA SƏUDİYYƏ ƏRƏBİSTANI ADI VERİLİB?*

Ali Səud hökuməti Ərəbistanın yeni tarixi dövrünə təsadüf edir. Lap qədim zamanlardan yə’ni İslam dini Ərəbistanda meydana gəldikdən sonra tayfa müharibələri aradan götürülür, bütün müsəlmanlar İslam bayrağı altında birləşirlər. Peyğəmbərdən (səlləllahu əleyhi və alih) sonra onun haqq canişinlərindən (yə’ni, on iki mə’sum İmamlardan) hökumət qəsb olunsa da, İslam ölkələri öz ərazilərini qoruyub saxlamış və istismarçı qərb dövlətlərinin bu ölkələrə təcavüzünün qarşısını almışlar.

---

[1] “Дирасатул-Исламиjjə”, səh. 391.

Vəhhabiliyin ilk dəfədən yayılmasını təşkil edən və onların arxasında duran qüvvə təxminən həmin dövrlərdə, yə'ni 1700-ci ildən kiçik məntəqələrdən birində hakimiyyətdə olan Mühəmməd ibni Səud adlı şəxsin köməyi ilə yayılmağa başlayır. Sonradan bu şəxsin nəsli hakimiyyətdə olduğuna görə onun nəslindən olan Əbdüləziz ibni Səud babasının adını yaddaşlarda saxlamaqdan ötrü Ərəbistana "Səudiyyə" adını verir. O gündən bu nəslin övladları bir-birinin ardınca hakimiyyətə gəlir və Ali Səud adı ilə tanınır. Bu hökumətin əvvəlindən təxminən 1820-ci ilə qədər yə'ni Misirin ora hücum etdiyi vaxta qədər mərkəzi hökuməti Nəcdin şəhərlərindən biri olan Dir'ə olub.

1820-ci ildən bu hökumət Dir'ədə dağılır və paytaxt Riyaz şəhərinə köçürülür. 1902-ci ildə İbni Səud hökuməti ələ alır və Riyaz şəhərini Ərəbistanın paytaxtı e'lan edir. Bundan sonra bu hökumət geniş şəkildə inkişaf etməyə başlayır[1].

Demək olar ki, vəhhabilik bu nəslin hökumətinin köməyi ilə yayılıb. Şeyx Mühəmməd ibni Əbdülvəhhab dünyadan köçəndən sonra, onun iddialarını həyata keçirməyi öhdəsinə alan Ali Səud hökumətinin müxtəlif İslam şəhərlərinə qanlı və dəhşətli hücumları başlayır. Cahil ərəb sanki cahiliyyətə qayıtmaqdan ötrü bəhanə axtarırmış. Onların törətdikləri cinayətlər və nahaq qanlar barəsində ayrıca kitab lazımdır.

Biz tanışlıq üçün vəhhabilərin ilk vaxtlarda müsəlmanları məxsusən şiə müsəlmanlarını necə amansızcasına qanlarını tökmələrinə işarə edəcəyik.

---

[1] "Даирәтүл-Мәарифил-Ислами", 1-чи чилд, səh. 191 (Әрәбчәдән тәрҹүмә).

## *VƏHHABİLƏRİN MÜHARİBƏLƏRİ*

### *MƏKKƏYƏ YÜRÜŞ*

Məkkə alimləri vəhhabiləri qəbul etmədiklərinə görə və onları müsəlmanların düşməni hesab etdiklərinə görə bir müddət onları Məkkəni ziyarət etməyə icazə vermirdilər. Bir müddət sonra vəhhabilərin nümayəndəsi Məkkəyə gəlir və həcc ziyarətinə icazə istəyir. Məkkə alimləri yalnız cizyə verməklə (xüsusi vergidir ki, kafirlərdən alınır) həccə gəlməyə icazə verirlər. Vəhhabilər bu işə razı olmur.

Nəhayət, vəhhabilərin o vaxtkı hakimi Əbdüləziz bunu bəhanə edərək Məkkəyə qoşun çəkir. Bununla da məkkəlilərlə vəhhabilər arasında müharibə başlayır. Təxminən doqquz ilə yaxın çəkən bu müharibədə çoxlu qanlar tökülür. Nəhayət, vəhhabilər qalib gəlir və sülh müqaviləsi bağlamaqla həccə gedirlər.

Sonralar yenə də məkkəlilərlə vəhhabilər arasında müharibə baş verir. Ərəb tarixçisi Cəmil Sədiqi Zəhavi bu müharibənin gedişi haqqında yazır: “Bu müharibədə vəhhabilərin ən çirkin işi müsəlman əhalini kütləvi surətdə qətlə yetirmələri idi. Kiçiyə, böyüyə rəhm etmirdilər. Balaca südəmər uşağın başını anasının qucağındaca kəsirdilər. Qur’an hifz edən bir dəstə müsəlmanı hamılıqla öldürdülər. Evlərdə bir kəs qalmadığına görə dükanlara və məscidlərə üz gətirirdilər. Qarşılarına çıxan hər kəsi amansızcasına öldürürdülər. Hətta rüku və səcdə halında

olanları qılıncdan keçirirdilər[1]. Bu şəhərdə olan kitabları o cümlədən, Qur'an səhifələrini, "Səhihi Buxari" kitabının nüsxələrini, "Səhihi Müslim"i və sair fiqh kitablarını küçə-bazara səpib onları dağıdırlar[2].

Daha sonra onlar Məkkə əhalisini özlərinə tabe etdilər. Həmin müharibə dövründə dörd məzhəb alimləri (Maliki, Şafei, Hənəfi və Hənbəli) alimləri vəhhabilərin kafir olmaları hökmünü verirlər[3].

---

[1] Сејјид Ибраһим Рүфаи ("Рисаләтүл-оврагүл-Бәғдадијјә", сәһ. 3.) нәглинә әсасән вәһһабиләр Мәккә әтрафында јүзләрлә мүсәлманы өлдүрүр. Онларын ичиндә алимләр, о ҹүмләдән: Мәккәдә Шафеи мәзһәбинин мүфтиси Сејјид Әбдүллаһ Зәвави, Шејх Әбдүллаһ Әбүлхејр, Мәккәнин газиси Шејх Сүлејман Мурад вә с. өлдүрүрләр.

[2] "Әл-фәҹрүс-Садиг", сәһ. 22.

[3] "Сејфул-Ҹәббар", сәһ. 2-дән сонра.

## *VƏHHABİLƏRİN MƏDİNƏYƏ YÜRÜŞÜ*

Yenə həmin ildə yə’ni təxminən 1800-cü ildə (1220-ci hicri ili) vəhhabilər Ali Səud hökuməti vasitəsi ilə Mədinəyə hücuma keçib oranı işğal edirlər. Peyğəmbərin (səlləllahu əleyhi və alih) hərəmində olan bütün qiymətli əşyaları ələ keçirirlər. Osmanlı hökuməti tərəfindən Mədinə və Məkkədə olan qazıları şəhərdən çıxarırlar[1].

Mədinə əhalisi Əmir Səuda bey’ət edirlər. Bundan sonra vəhhabilər günbəzləri söküb qəbirlərin üstünü dağıtmağa başlayırlar[2].

Beləliklə, vəhhabilər böyük bir hökumət təşkil edirlər. O da Nəcd və Hicazdan ibarət idi. Bütün şəhərlərdən Osmanlı hökumətinin nümayəndələrini qovurlar. Vəhhabilər buna qane olmayıb öz hücumlarına davam edirlər. Müqəddəs Kərbəla və Nəcəf şəhərlərinə hücuma başlayırlar.

---

[1] «Тарихүл-мəмлəкəтил-əрəбиjjəтис-Сəудиjjə”, 1-чи чилд, сəh. 91.

[2] «Тарихүл-мəмлəкəтил-əрəбиjjəтис-Сəудиjjə”, 1-чи чилд, сəh. 92.

## *VƏHHABİLƏRİN NƏCƏFÜL-ƏŞRƏFƏ HÜCUMU*

Vəhhabilərin ilk mübarizə apardıqları firqələrdən biri şiələr olub. Vəhhabi qoşunlarının Nəcəfə və Kərbəlaya hücumları təxminən 1792-ci ildən (1216-cı hicri ili) başlayır. Bu hücum Əbdüləzizin dövründən ta Səud ibni Əbdüləzizin dövrünə qədər (1800-cü ilə qədər) davam edir.

Əlbəttə, vəhhabilər Nəcəfə və Bağdada etdikləri hücumların əksəriyyətində müsəlmanların şiddətli əksül-əməli ilə qarşılaşmış və çoxlu tələfat verdikləri üçün geri çəkilmişlər. Bununla belə, şəhərlər dağıdılmış çoxlu müsəlmanın qanı nahaqdan axıdılmışdır. Onlar Nəcəfdə İmam Əli əleyhissəlamın hərəmində olan çoxlu qızıl-gümüşə meyl salmış, lakin vəhhabilərin hücum ehtimalını bilən şiələr bu zinətli əşyaları başqa yerdə gizlətdiklərinə görə onları ələ keçirə bilməmişdilər[1].

---

[1] "Дүhəтүл-вүзəра", səh. 213-217.

## *VƏHHABİLƏRİN KƏRBƏLAYA YÜRÜŞÜ*

Kərbəla, müsəlmanların ən çox cəm olduğu və müqəddəs saydığı məkanlardan biridir. Peyğəmbərin (səlləllahu əleyhi və alih) övladının dəfn olunduğu bu məkan məzhəbindən və əqidəsindən asılı olmayaraq bütün müsəlmanların yanında xüsusi hörmətə malikdir. Peyğəmbər (səlləllahu əleyhi və alih) hələ dünyada ikən iki cavan gül nəvələrini (İmam Həsən və Hüseyn əleyhimassəlamları) minbərin üstündən müsəlmanlara tövsiyə etmiş və camaatın gözü önündə dəfələrlə onların üzündən, gözündən öpmüşdür. Bu da onun əlamətidir ki, bu övladlar Peyğəmbərin (səlləllahu əleyhi və alih) ən yaxın və sevimli övladlarındandır. Dəfələrlə onların necə şəhid olmalarından xəbərlər vermişdir. Qur'an Peyğəmbərə xitab edərək buyurur:

***De ki: Mən sizdən bunun [risaləti təbliğ etməyimin] müqabilində Əhli-beytimə məhəbbətdən başqa bir şey istəmirəm***[1]!

Görəsən, özgələrin mal-dövlətini çapıb-talayan vəhhabilərin öz alimləri Qur'anda bu ayəni görməyiblər və bilmirlər ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) Əhli-beytini dost tutmaq əmrini Allah özü əmr etmişdir? Xeyr! Belə ayələri Qur'anda oxumazlar! ×ünki onların mənafeyi ilə uyğun gəlmir.

Kərbəla hadisəsi hamıya yaxşı mə'lumdur. Qeyd etməyə ehtiyac yoxdur. O da şərabxorluq edib özünü

---

[1] "Шура" сурəси, 23-чү ajə.

müsəlmanların başçısı adlandıran Müaviyə və Yezid kimi şəxslərin əli ilə baş verib.

Vəhhabilərin Kərbəlaya hücumu demək olar ki, Nəcəfə hücumları ilə eyni vaxtda olub. Yə’ni bu hadisə də, təxminən 1792-ci ilə təsadüf edir. Lakin Kərbəlada daha çox qanlar töküblər. Bu yürüş barəsində tarixdə müxtəlif cür yazılar var. Biz onlardan bir-iki nümunə zikr edəcəyik. Vəhhabi yazıçısı Səlahəddin Muxtar bu hadisə barəsində yazır: “Təxminən 1792-ci ildə (1216-cı il hicri ili) Əmir Səud (Əbdüləzizin oğlu) güclü bir qoşunla İraqa tərəf hərəkətə gəlir. Zi’qədə ayında Kərbəla şəhərinə çatıb onu mühasirə edirlər. Qoşun şəhərin darvazasını sındırıb zorla şəhərə daxil olur. Küçə, bazar və evlərdə olan əhalinin çoxusunu sorğu-sualsız qətlə yetirirlər. Günortaya yaxın çoxlu qarətlə şəhərdən xaric olurlar[1]”.

Amma bu yürüşün əsl görünüşünü  o şəhərdə kiliddar olan və bu şəhərin əhalisindən olan Əbdül Cavad belə nəql edir: “1792-ci ildə (1216-cı hicri tarixi) Vəhhab Əmir Səud 20 min nəfərdən ibarət güclü silahlarla silahlanmış bir qoşunla Kərbəlaya həmlə edir. Kərbəla bu vaxtlarda ən böyük şöhrətə malik olan şəhərlərdən biri idi. İran, türk və ərəb zəvvarları hər yerdən buraya üz gətirirdilər. Səud, şəhəri mühasirəyə aldıqdan sonra şəhərə daxil olur. Şəhəri müdafiə edənləri və sakinləri şiddətlə qırmağa başlayır.

Vəhhabi qoşunları şəhərdə elə rüsvayçılıqlar törədirlər ki, onu vəsf etmək mümkün deyildir. Hətta nəql edirlər ki, bir gecədə 20 min nəfəri qətlə yetirirlər[2].

---

[1] “Тарихүл-мәмләкәтил-әрәбиjjәтис-Сәудиjjә”, 1-чи чилд, səh. 73.

[2] “Нүзғәтүл-ғәрра”, səh. 72.

Əmir Səud döyüş qurtardıqdan sonra hərəmlərin xəzinələrinə əl atır. Əlinə keçən qiymətli əşyaları və qızılları qarət edir.

Hacı Zeynəlabidin Şirvani[1] təxminən Mühəmməd ibni Əbdülvəhhab ilə eyni bir zamanda yaşamışdır. Bu alim illərlə Kərbəlada sakin olmuş[2] və bu hadisələrin canlı şahidi kimi belə yazır: "Günün günorta çağı əllərinə keçən bütün qızıl-gümüş, cəvahir, qızıl qablar və sair əşyalar bu zalimlərin əlinə keçdi. Lakin bə'zi xəzinələri onlar gəlməmişdən qabaq gizlətdiklərinə görə apara bilmədilər".

Bundan əlavə o vaxt Kərbəlanın böyük İslam alimlərindən olan Mərhum Bəhrul-ulum özünün "Miftahul-kəramət" kitabının axırında bu dəhşətli hücumu vəsf edərək belə yazır: "Bu tarixdə (1216) vəhhabilərin şərur qoşunları müqəddəs yerlərə həmlə edib şiələri qətl-qarət ediblər!"

---

[1] Азәрбајҹанын мәшһур алимләриндән биридир. "Һәдаигус-сәјаһәт", сәһ. 427.

[2] Бу сәтирләрин мүәллифи бу алимин һәјатыны "Азәрбајҹан Ислам алимләри" китабында кениш јазмышдыр.

## *OSMANLI HÖKUMƏTİNİN ALİ SƏUDLA (VƏHHABİLƏRLƏ) MÜBARİZƏSİ*

Təxminən 1811-ci ildə Osmanlı imperiyası vəhhabilərin irəliləməsi və böyük dövlət təşkil etmək niyyətlərindən narahat olur.

Osmanlı sultanı təxminən 1811-ci ildə vəhhabilərin hökumətini dağıdıb onları əsir almaqdan ötrü yaxşı təchizatlanmış güclü bir qoşunu öz nümayəndəsi olan Misir valisi Mühəmməd Əli Paşaya köməyə göndərir. Mühəmməd Əli Paşa özü də böyük bir qoşun yığaraq türk qoşunu ilə birlikdə Hicaza tərəf hərəkət edir.

Əmir Səud bu işdən xəbər tutur. Qısa bir müddətdə qoşun cəm olmasına əmr edir. Tez bir zamanda 18 minə yaxın qoşun hazırlayır. İki qoşun tezliklə üzləşir. Lakin bu döyüşdə türk qoşunu məğlub olub geri çəkilir. Rəvayətə görə bu döyüşdə 4 mindən çox türk əsgəri və 600-ə yaxın vəhhabi öldürülür[1].

İki ildən sonra Mühəmməd Əli Paşa daha böyük bir qoşunla Məkkəyə daxil olub vəhhabiləri məğlub edir. Sonralar da hər iki tərəf arasında çoxlu döyüşlər olur.

Nəhayət, vəhhabilər təzədən hökumət başına gəlir və indi də bu hökumət davam edir.

---

[1] "Үнванул-Мәчд", 1-чи чилд, səh. 158.

## *VƏHHABİLƏRİN BƏ'Zİ E'TİQADLARINA QISA BİR BAXIŞ*

***1. Vəhhabilər əksər müsəlmanları kafir sayır.***

Bəri başdan qeyd etməliyik ki, vəhhabilər müsəlmanların əksəriyyətini müşrik və kafir sayırlar. Şiələr barəsində isə bunu daha çox tə'kid edirlər. Əsli qarət, vurub-dağıtmaq və çapğınlıqla başlayan bu firqə elə hesab edir ki, Peyğəmbərdən (səlləllahu əleyhi və alih) 6-7 əsr sonra vücuda gələn bu firqə yeganə düz yolda olan firqədir. Əlbəttə, bizim məqsədimiz yalnız tarixi çatdırmaq olduğuna görə çox şeyləri yazmaq istəmirik.

Vəhhabilərin hücumlarına ən çox şiələr mə'ruz qalsalar da, lakin bütün müsəlman alimləri bu firqə yaranan gündən onları inkar etmiş hətta qeyd etdiyimiz kimi bu firqənin əsasını qoyan İbni Teymiyyə əksər müsəlmanlarla müxalifət etdiyinə görə zindanda ölmüşdür.

Hər şeydən əvvəl qeyd etməliyik ki, bunlar zahirdə özlərini düzgün qələmə verməkdən ötrü müxtəlif əsassız dəlillərə əl atırlar. Məxsusən, hər hansı bir e'tiqadı dərin araşdırıb təhqiq etmədən inkar edir və bu e'tiqad sahiblərini kafir adlandırırlar. Onlardan bə'zi e'tiqadları qeyd edib mümkün olan həddə cavablarını yazmaq istərdik.

***Birinci:*** Əbdülvəhhabın əqidəsinə görə müsəlmanlar müşrikdirlər[1]. ×ünki onlar Peyğəmbərə (səlləllahu əleyhi və alih) pənah aparır və ondan hacət istəyirlər. Halbuki,

---

[1] "Гəваид" китабы, сəh. 4.

yalnız Allaha pənah aparmaq lazımdır. Hər kəs Allahdan başqa birisinə sığınsa, müşrik sayılır.

***Cavab:*** Əvvəla heç bir müsəlman Allaha pənah aparmağı inkar etmir və bütün müsəlmanlar qəbul edir ki, insanların pənah yeri yalnız Allahdır. Lakin bu o deməkdeyildir ki, günahkar şəxs Allah yanında bağışlanmaq və ne'mətlərə nail olmaqdan ötrü Allahın icazəsi ilə Onun nəzərində pak və təmiz olan mə'sumlara təvəssül etsin. Bununla da, mə'sumlar vasitəsilə Allahdan bağışlanmaq istənilsin. Bu heç də o demək deyildir ki, Peyğəmbərə (səlləllahu əleyhi və alih) və mə'sum İmamlara müstəqil şəkildə pənah aparılır. Əksinə, bu o deməkdir ki, əsl pənah yeri olan Allahın pənahgahına düşməkdən ötrü Allah yanında uca məqamı və pak məqamlı mə'sum Peyğəmbər (səlləllahu əleyhi və alih) və İmama təvəssül olunsun və Allah onlara xatir günahkarların günahından keçsin. Bu eyni şəfaət məsələsidir ki, Allah bə'zi pak və mə'sum (hər bir günahdan pak) şəxslərə Qiyamətdə şəfaət etməyə icazə verəcək ki, insanların günahını onlara xatir bağışlasın. Tarixdə və Qur'anın özündə dəfələrlə oxuyuruq ki, günahkar şəxs Peyğəmbərin (səlləllahu əleyhi və alih) hüzuruna gəlir və o Həzrət onun barəsində Allaha dua edir və Allah da onun duasını qəbul edib həmin şəxsi bağışlayır. Bu məsələdə heç bir şirk və müşrik olmaq şübhəsi yoxdur və ola bilməz! Ona görə ki, bu işə Allah özü icazə verib. Necə ki, Qur'an buyurur:

***Biz hər bir Peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə göndərdik. Onlar [münafiqlər, günahkarlar] özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi əlbəttə, Allahın***

***tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər.*** *("Nisa" surəsi, 64-cü ayə)*

Şübhə yaranmamaqdan ötrü onu da qeyd edək ki, Mühəmməd ibni Əbdülvəhhab cahil müşriklərlə müsəlmanları qatışıq salıb. Cahil ərəblər və ya başqa millətlər heç bir əsas olmadan və düşünmədən özlərindən düzəltdikləri daş-kəsəklərə və bütlərə sitayiş edir və onlar vasitəsilə Allahdan bağışlanmaq istəyirdilər. Hər bir düşüncəli şəxs ilk vaxtdan anlayar ki, belə bir qabiliyyəti və icazəsi olmayan bütlər və daş-kəsəklər və yaxud ot, su, günəş, ulduz və hər hansı təbii qüvvə vasitəsi ilə Allah yanında şəfaət almaq olmaz. Yalnız o şəxsləri Allah yanında vasitə aparmaq olar ki, əvvəla Allah özü icazə versin ki, bu şəxs mənim yanımda sizə şəfaət verə bilər və ikincisi bu şəxsin Allah yanında böyük hörməti olmuş olsun. Belə olmayan surətdə heç bir kəsin haqqı yoxdur ki, əsassız olaraq qabiliyyəti olmayanı Allah dərgahında vasitə qərar verək. Bu bəhsi daha çox zaman etdirmək olar.

Lakin bəhsdən uzaqlaşmamaqdan ötrü bununla kifayətlənirik.

Bəhsimizə şahid gətirməkdən ötrü daha bir neçə ayəni qeyd etmək istəyirik. Allah taala "Ali-İmran" surəsində Peyğəmbərə (səlləllahu əleyhi və alih) xitab edərək buyurur:

***Artıq sən onları əfv et, onlar üçün [Allahdan] bağışlanmaq dilə...***

"Nur" surəsinin 62-ci ayəsinin bir qismətində Allah taala buyurur:

***Əgər onlar bə'zi işləri üçün səndən izn istəsələr, onlardan özün istədiyinə izn ver və onlar üçün Allahdan bağışlanmaq dilə...***

Belə ayələr Qur'ani-Məciddə çoxdur. Bütün bunlardan mə'lum olur ki, əgər Allah taala layiq bildiyi adamı bağışlanmaq vəsiləsi qərar verərək bu məqamı ona verirsə, o şəxs vasitəsi ilə Allahdan bağışlanmaq tələb etməyin heç bir eybi yoxdur. Əksinə, bu insanın dini ruhiyyəsini bir az da qüvvətləndirir. Sözsüz ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) və Mə'sum İmamlar belə məqamın əsl sahibləridir.

## *VƏHHABİLƏRİN ƏQİDƏSİNƏ GöRƏ TöVHİD VƏ ŞİRK*

Qeyd etdiyimiz kimi vəhhabilər əksər müsəlmanları müşrik hesab edirlər. Onların əqidəsinə görə Allahdan başqa hər hansı bir şəxs və ya hər hansı bir şey müqabilində təvazö’ (itaətkarlıq) etmək və onun məqamını uca tutmaqla ondan hacət istəmək şirk hesab olunur. Onların əqidəsincə Peyğəmbərin (səlləllahu əleyhi və alih) zamanında olmayan hər bir təzə mətləb bid’ət[1] adlanır və İslam şəriətinə ziddir. Bir az da dəqiq desək onların əqidəsincə “Sələf”in (keçmiş din xadimlərinin) görmədiyi təzə bir işi görmək bid’ət sayılır. Həmçinin, onların əqidəsincə hər hansı tə’zim və hacət nidası ibadət sayılır. Vəhhabilər həyatı “tövhid” nişanəsi, ölümü isə “şirk” ilə müqayisə edirlər. Yə’ni bu məsələyə mö’təqiddirlər ki, əgər İslam Peyğəmbərindən sağlığında bir şey tələb etsələr (məsələn, bağışlanmaq) şirk hesab olunmaz, amma ölümündən sonra ondan bir şey istənilsə, şirk hesab olunur.

Vəhhabiyyətdə tövhid iki növdür:

***1.*** Tövhidi rububi, yə’ni, Xaliq birdir!

***2.*** Tövhidi uluvi, yə’ni, ibadətə layiq yalnız Allahdır!

Əslində onlar “Tövhidi xaliqiyyəti” Tövhidi rububi hesab etmişlər və səhvən “Tövhidi ibadət”i “Tövhidi uluvi” adlandırmışlar. Onların əqidəsincə cahiliyyət

---

[1] Бид'әт Исламда һарамдыр. Диндә олмајан бир шеји дин үнваны илә динә дахил етмәк бид’әт адланыр.

əsrində olanlar Xaliqi bir bilirdilər, amma çoxlu əşyalara ibadət edirdilər.

Qısaca olaraq bu mətləbi belə araşdırmaq olar:

Qur'ani-Məciddən belə ələ gəlir ki, "Tövhid"i doqquz qismə bölmək olar.

***1.*** Tövhidi zati, Allah birdir ("Həcc" surəsi, 34-cu ayə)

***2.*** Tövhidi sifati, Mə'naca fərq etməsinə baxmayaraq, Allahın bütün sifətlərinin yalnız bir misdaqı var. O da Allahdır. ("İxlas" surəsi)

***3-4.*** Tövhidi hakimiyyət və Tövhidi təşriyi.

Bütün varlığa Allah hakimdir ("Yusif" surəsi, 40-cı ayə)

***5. Tövhidi Xaliqi***

Yaradan fəqət Allahdır. ("Rum" surəsi, 20-ci ayə)

***6. Tövhidi rububi və ya tədbiri.***

Bütün varlığın tədbir tökəni və idarə edəni yalnız Allahdır!

("Ə'raf" surəsi, 54-cü ayə)

***7. Tövhidi itaət***

Yalnız Allahdan və Onun hökmündən itaət etmək!

("Maidə" surəsi, 92-ci ayə)

***8. Tövhidi ibadi***

Yalnız Allaha ibadət etmək lazımdır!

("Nisa surəsi, 36-cı ayə)

***9. Tövhidi şəfaət və məğfirət***

Yalnız Allah şəfaət edən və Onun icazəsi ilə şəfaət və bağışlanmaq vardır.

("Zumər" surəsi, 44-cü ayə və "Ali-İmran" surəsi, 135-ci ayə)

***1)*** Beləliklə, aydın olur ki, tövhidi iki qismə bölmək yanlış bir işdir. Vəhhabilər Tövhidi Xaliqi ilə Tövhidi rububini qatışığ salıblar.

***2)*** İbadət yalnız təvazö' halına deyilməz. Əksinə, o təvazö' halı ibadət hesab olunur ki, e'tiqadın ola ki, qarşındakına ibadət edirsən, yoxsa hər kəsə ehtiram etmək ibadət sayılmır.

Bu mətləbin dəlili Qur'andır. Qur'anda mələklər hörmət əlaməti olaraq (ibadət yox) Adəmə səcdə edirlər.

("Bəqərə" surəsi, 34-cü ayə)

Həzrət Yə'qub və zövcəsi Yusifin qarşısında hörmət əlaməti olaraq səcdə edirlər. ("Yusif" surəsi, 100-cü ayə)

Ata-ana qarşısında insanın zəlil kimi durması əmri ("İsra" surəsi, 24-cü ayə, "Şüəra" surəsi, 215-ci ayə, "Maidə" surəsi, 54-cü ayə)

Əgər qərar olsa ki, hər bir təvazö' halı (itaətkarlıq) və ehtiram ibadət hesab olunsun, onda bütün bunlar şirk sayılmalıdır. Halbuki, Allah Qur'anda bu işləri pisləməmiş, hətta bə'zi yerlərdə ehtiramı (məsələn, ata-anaya) vacib bilmişdir.

Bütün bu ehtiram və təvazö' halının axırı Allah taalanın əmrinə və göstərişinə əməl etməyə qayıdır. O ki, qaldı Peyğəmbərin (səlləllahu əleyhi və alih) həyatı ilə ölümü arasında heçlik kimi fərq qoymağa, hər bir müsəlman olan şəxs bilir və bu əqidədədir ki, insanın ölümü heçlik olmaq deyil. Yə'ni insanın cismi aradan getsə də, ruhu həmişə sağdır, hər şeyi görür və bilir. Məxsusən, Allaha yaxın olan mə'sum Peyğəmbər (səlləllahu əleyhi və alih), İmamlar və şəhidlər bu sahədə daha çox imtiyaza malikdirlər. Necə ki, Qur'ani-Kərim buyurur:

***Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbi yanında diri olub ruzi [Cənnət ruzisi] yeyirlər.*** *("Ali-İmran" surəsi, 169-cu ayə)*

Allah əgər şəhidlərə belə məqam verirsə, mə’sum Peyğəmbər (səlləllahu əleyhi və alih) və İmamlara sözsüz ki, bundan daha uca məqam verər.

## *VƏHHABİLƏRİN E’TİQADINA GöRƏ MƏ’SUM İMAMLARIN, BöYÜK ŞƏXSİYYƏTLƏRİN VƏ PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) QƏBRİNİN ZİYARƏTİNƏ GETMƏK HARAMDIR!*

Vəhhabilərin bu e’tiqadı çox da qədim zamanlara getmir. Peyğəmbərin (səlləllahu əleyhi və alih) dövründə və ondan 8 əsr sonra da bütün müsəlmanlar qəbristanlığa gedir, qəbirləri ziyarət edirdilər və heç kəs bu məsələni inkar etmirdi.

Mühəmməd ibni Əbdülvəhhabın e’tiqadına əlavə olunmuş bə’zi əqidələrdən biri də İbni Teymiyyənin ondan dörd yüz il əvvəl qərara aldığı Peyğəmbərin qəbrinin ziyarətinin haram olması hökmüdür. Başqa məsələlər kimi bu hökm də İslam alimləri tərəfindən şiddətlə inkar olunur və hər kəs öz e’tirazını bildirir.

Qeyd etdiyimiz kimi tarixi mənbələri araşdıranda, Peyğəmbərin (səlləllahu əleyhi və alih) və onun əshablarının qəbirləri ziyarət etdiklərini aşkar görürük.

Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin ziyarətinin heç bir günah olmaması barəsində aşağıdakı dəlilləri qeyd etmək olar:

***1.*** Uzaq ölkədən ilk dəfə Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinə ziyarətə gələn o Həzrətin azan verəni Bilal Həbəşi olmuşdur.

***2.*** ömər ibni Əbdüləziz Şam şəhərinə dəstə yolladıqda onlara sifariş edir ki, mənim salamımı Peyğəmbərin

(səlləllahu əleyhi və alih) qəbrinə çatdırın və onu ziyarət edin!

**3.** ömər Beytulmüqəddəsi fəth etdikdən sonra Kə'bül Əhbara belə deyir: "Mənimlə Mədinəyə Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin ziyarətinə gedirsənmi?"

**4.** "Kamili İbni Əsir" və "Tarixi Təbəri" kitabları yazır ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) həmişə buyurardı ki, şəhidlərin qəbrinin ziyarətinə gedin və bununla Qiyaməti yada salın!

**5.** "Səhihi Müslim" kitabı (3-cü cild, səhifə 634-də) yazır: "Peyğəmbər (səlləllahu əleyhi və alih) bə'zən Aişə ilə "Bəqi" qəbristanlığına gedər və orada buyurardı:

*"Müsəlmanların və mö'minlərin qəbrinə salam olsun! Allah bizdən əvvəlkilərə və bizdən sonrakılara və bizə rəhmət eləsin!"*

**6.** Başqa bir rəvayətdə Peyğəmbərdən (səlləllahu əleyhi və alih) belə nəql olunur:[1]

*"Hər kəs mənim qəbrimi ziyarət etsə, mənim şəfaətim ona vacib olar".*

**7.** Qəzzali "Əxbarul-uyun" kitabında (1-ci cild, 246-cı səhifədə) Peyğəmbərdən (səlləllahu əleyhi və alih) belə bir hədis nəql edir:

*"Hər kəs məndən ötrü (qəbrimə) ziyarətə gəlsə, mənim haqqımdır ki, Qiyamət günündə ona şəfaətçi olum".*

**8.** Seyyid Murtəza Zübeydi Hənəfi "Tacul-Ərus" kitabında (1-ci cild, 74-cü səhifədə) Peyğəmbərdən (səlləllahu əleyhi və alih) aşağıdakı hədisi nəql edir:

*"Hər kəs həccə gələ və mənim qəbrimi ziyarət etməyə əlbəttə ki, mənə cəfa etmiş olur!"*

---

[1] Әбу Бәшир Мүһәммәд Рази "Әл-күнјә вәл-әсма"

***9.*** “Müsnədi Əbu Davud” (1-ci cild, 12-ci səhifədə) Peyğəmbərin (səlləllahu əleyhi və alih) belə buyurduğunu rəvayət edir:

*“Hər kəs mənim vəfatımdan sonra məni ziyarət etsə, sanki məni dirilikdə ziyarət etmişdir....”*

Bütün bunlar əhli sünnət mənbələrindən nəql olunub. Amma şiə alimləri Peyğəmbərin (səlləllahu əleyhi və alih) və mə’sum İmamların (əleyhimussəlam) qəbrinin ziyarətinin fəzilətləri barəsində ayrıca kitablar yazmışlar. Bu qısa bəhsdə onlara işarə etməyə macal yoxdur.

Beləliklə, Peyğəmbərin (səlləllahu əleyhi və alih) və mə’sum İmamların (əleyhimussəlam) o cümlədən hər kəsin öz dünyadan gedəninin qəbrini ziyarət etməsində heç bir qəbahət yoxdur. Əksinə, bu iş insanın Qiyamətə olan imanını daha da artırır və həmçinin, çoxlu ictimai faydaları vardır.

## *QƏBİR YANINDA NAMAZ QILMAQ BARƏSİNDƏ VƏHHABİLƏRİN NƏZƏRİ*

İbni Teymiyyənin fətvasına əsasən, Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin kənarında namaz qılmaq haramdır!

***Cavab:***

***1.*** Bu iddia tamamilə əsassızdır və heç bir əsaslı dəlili yoxdur!

***2.*** Qur'ani-Məcid buyurur:[1]

***[Ya Mühəmməd] Yadına sal ki, biz Kə'bəni insanlar üçün savab və əmin-amanlıq yeri qərar etdik. [Ey mö'minlər] Sizə də: İbrahimin durduğu yeri özünüzə namaz qılınan yer edin! — dedik...***

***3.*** "Səhihi Buxari"də (1-ci cild, səh. 91-də) Peyğəmbərin (səlləllahu əleyhi və alih) dilindən belə bir rəvayət nəql olunur:

*"Yer mənim üçün məscid və pakizə qərar verildi".*

***3.*** Əgər Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin yanında namaz qılmaq haram və məkruh olsaydı, onda on dörd əsr ərzində o Həzrətin qəbrinin kənarında heç kim namaz qılmazdı. Halbuki, bu belə deyildir. Yə'ni on dörd əsrdir ki, o Həzrətin qəbri kənarında namaz qılırlar və vəhhabilərdən başqa heç kəs bunun haram olması barəsində hökm verməmişdir.

---

[1] "Бәгәрә" сурәси, 125-чи ајә.

***4.*** Həzrəti Zəhra (səlamullahi əleyha) cümə günləri əmisi şəhid Həmzənin qəbrinin yanına gedib namaz qılır və ona göz yaşı tökürdü[1].

***5.*** On dörd əsrdir ki, həcc ziyarəti zamanı Hacərin və İsmayıl Peyğəmbərin qəbrinin yanında olan "Hicri İsmayıl"ın yanında müsəlmanlar namaz qılırlar və heç bir sünni-şiə alimi bu əməlin qəbahət olması barəsində hökm verməmişdir.

[1] «Сүнəни Бejhəги", 4-чү чилд, сəh. 78.

## *VƏHHABİLƏR PEYĞƏMBƏRDƏN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) YADİGAR QALAN ŞEYLƏRƏ VƏ YA O HƏZRƏTİN QƏBRİNƏ ƏL SÜRTMƏYİ HARAM BİLİRLƏR!*

***Cavab:***

1. Qur'ani-Məcid bə'zi müqəddəs şeylərin təbərrük vasitəsilə feyzə yetməsini qəbul edir. Məsələn, "Yusif" surəsinin 93-cü ayəsində oxuyuruq:

***Bu köynəyimi götürüb aparın atamın üzünə sürtün, o yenidən görməyə başlayar.***

***2.*** Tarixçi Əsqəlani yazır:

Mədinədə nə vaxt təzə uşaq dünyaya gəlsə, tez Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanına aparırdılar. Həzrət onun ağzına xurma sürtür, sonra onun üçün dua edirdi.

***3.*** Tarix yazır ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) dəstəmaz suyunu yerə tökülməyə qoymazlarmış. Hərə bir tərəfdən təbərrük etmək üçün o sudan üz-gözünə sürtərdi.

***4.*** "Kənzül-ümmal" kitabının (16-cı cild, səh. 249) müəllifi yazır: "Təbərrük etmək üçün uşaqları Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanına gətirirdilər.

***5.*** Əbdüllah ibni Əbbas doğulanda, Peyğəmbər (səlləllahu əleyhi və alih) Əhli-beyt (əleyhimussəlam) ilə birlikdə Əbu Talib şe'ybində idilər. Peyğəmbər (səlləllahu əleyhi və alih) onun ağzını öz ağzının suyu ilə qarışdırır.

Bütün bunlardan belə nəticə alarıq ki, təbərrükdən iki məqsəd var.

***1)*** Qeyri-təbii yolla İlahi feyzə nail olmaq;

***2)*** Bununla Peyğəmbərin (səlləllahu əleyhi və alih) və onun Əhli-beytinin (əleyhimussəlam) məhəbbətini qəlblərdə çoxaltmaq. ×ünki, Peyğəmbər (səlləllahu əleyhi və alih) və Əhli-beyt (əleyhimussəlam) Allahın hökmlərini yayandırlar.

## ***DöRD ƏHLİ SÜNNƏT MƏZHƏBİ RƏHBƏRLƏRİNİN PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) QƏBRİNİN ZİYARƏTİ BARƏSİNDƏ***

***1.*** Hüseyn ibni Həsən Həlimi Cürcani Şafei (403-cü hicri ilində vəfat edib) yazır: *"Bu gün Peyğəmbərin (səlləllahu əleyhi və alih) əziz tutlmasına bağlı olan işlərdən biri də o Həzrətin qəbrinin ziyarətidir*[1]*".*

***2.*** Əhməd ibni Mühəmməd Mühaşim Şafei (420-ci hicri ildə vəfat edib) buyurur: *"Müstəhəbdir ki, hacı Məkkədə həcc əməllərini qurtardıqdan sonra Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrini ziyarət etsin*[2]*".*

***3.*** Qazi Əyaz Maliki (543-cü hicri qəməri ilində vəfat edib) yazır:

"Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin ziyarəti ictimai bir adətdir və təşviq olunmuş fəzilətlərdən biridir[3]".

***4.*** İbn Əbi Səkinə Mühəmməd ibni Əbdüllah Saməri Hənbəli (616-cı hicri qəməri ilində vəfat edib) yazır: *"Mədinəyə gələn hər şəxsə qüsl etmək, daha sonra Peyğəmbərin (səlləlahu əleyhi və alih) qəbrini ziyarət etmək və ona salam göndərib dua oxumağın ədəblərini əta etmək müstəhəbdir*[4] *"*

---

[1] "Əл-минhач фи шө'əбил-иман".

[2] Китаби "Əт-Təчрид".

[3] "Зијарати Чавад Мүhəддиси".

[4] "Əл-Мүстовəб".

Bütün bunlar dəlalət edir ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) və sair övliyaların qəbrinin “qürbətən iləllah” niyyəti ilə ziyarət edilib təbərrük edilməsində heç bir müşkül yoxdur.

## *ƏHLİ SÜNNƏT KİTABLARINDA PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) ZİYARƏTİNDƏ OLAN MÜSTƏHƏBB ƏMƏLLƏR*

Qeyd etdiyimiz kimi, şiə alimlərinin sözsüz fəzilətli əməl kimi qəbul etdikləri ziyarət məsələsi həddən artıq mənbələrdə vardır. Biz münsiflik üçün yalnız sünni alimlərinin bu barədə nəzərlərini qeyd etmək istərdik. Onlardan:

***1.*** Hər müsəlmanın Peyğəmbəri (səlləllahu əleyhi və alih) həmişə ziyarət etməyə məhəbbəti olmalıdır[1];

***2.*** Evdən çıxıb ziyarətə gedərkən dua oxumaq;

***3.*** Yolu gedərkən Peyğəmbərə (səlləllahu əleyhi və alih) çoxlu salavat göndərmək;

***4.*** Mədinəyə çatanda dua oxumaq;

***5.*** Hərrə çayında qüsl edib Mədinəyə daxil olmaq;

***6.*** Cəbrail qapısından daxil olmaq;

***7.*** Peyğəmbərin (səlləllahu əleyhi və alih) məscidini gördükdə təvazö’ etmək və onu böyük tutmaq;

***8.*** Ziyarət vaxtı ayaq üstə durmaq və ya diz üstə oturmaq;

***9.*** Ziyarətnamə oxumaq;

***10.*** Əllərini, bədənini şərif qəbrə sürtmək və qəbri öpmək kimi işlər müstəhəbdir.

Bütün bunlar dörd məzhəb alimləri arasında inkaredilməz hökmlərdir.

---

[1] Бүтүн бу һөкмләр Факиһи Мәккинин “Һүснүт-тәвәссүл фи адаби зијарәти әфзәлүр-рәсул” китабындан көтүрүлмүшдүр.

## *QƏBRİN ÜSTÜNÜN DÜZƏLMƏSİ BARƏSİNDƏ VƏHHABİLƏRİN NƏZƏRİ*

Əvvəlcədən qeyd etdiyimiz kimi vəhhabilərin ilk hücumlarına mə'ruz qalan ən çox şiələr olmuşdur. İlk dəfə Mədinəyə hücum çəkən vəhhabilər mə'sum İmamların (əleyhimussəlam) və Peyğəmbərin (səlləllahu əleyhi və alih) qəbrinin günbəzini dağıdırlar. Onların əqidəsinə görə qəbrin üstü yerlə bərabər olmalıdır. Heç bir başqa müsəlman məzhəbinin qəbul etmədiyi bu əqidə o vaxtdan İslam alimlərinin geniş e'tirazına səbəb olur. Mədinədə "Bəqi" qəbristanlığında dəfn olunmuş mə'sum İmamların (əleyhimussəlam) qəbirlərinin üstü müsəlmanlar tərəfindən geniş şəkildə örtülmüş və ziyarətgaha çevrilmişdi. 53-cü səhifədə verilmiş şəkillərdə Mədinədə "Bəqi" qəbristanlığında olan İmamların məqbərələrinin vəhhabilərin hücumundan qabaqkı və sonrakı görünüşüdür. Gördüyünüz kimi vəhhabi dəstələri Ali Səud qoşunu ilə Mədinəyə hücum etdikdən sonra bu günbəzləri yerlə-yeksan etmiş və içində olan bütün qiymətli əşyaları da qarət etmişlər.

İndi də qəbirlərin tə'mir edilməsi barəsində şiə alimlərinin nəzərlərinə diqqət edək:

***1.*** Qur'ani-Məciddə heç vaxt bu məsələ inkar olunmayıb. Əksinə, bə'zi ayələr nişan verir ki, İmamların və Peyğəmbərlərin qəbirlərinin üstünü tə'mir etmək və uca tutub ehtiram göstərmək İslam dininin xeyrinədir.

Qur'ani-Kərim "Həcc" surəsinin 37-ci ayəsində buyurur:

***Hər kəs İlahi nişanəyə tə'zim etsə və hörmət göstərsə, bu iş qəlblərin təqvalı olmasının əlamətidir.***

Ayədə "nişanə"dən məqsəd təfsirçilərin nəzərinə görə "Allahın dininin nişanələri"dir. Bəs, Allah yanında ən uca məqamlara malik olan Peyğəmbər (səlləllahu əleyhi və alih) və İmamlar yer üzündə Allah dininin qurucuları və yayıcılarıdırlar. Məgər bundan böyük "din nişanəsi" ola bilərmi? Bəs, belə bir nəticəyə çatırıq ki, bu iş nəinki qəbihdir, əksinə, Allahın razılığına səbəb olan bir işdir.

***2.*** Qur'ani-Məcid "Bəqərə" surəsinin 158-ci ayəsində buyurur:

***Həqiqətən, Səfa və Mərva [dağları] İlahi nişanələrdəndir.***

Bütün bunları dinin nişanələri kimi yozub yuxarıdakı birinci ayədəki məzmunla tutuşdursaq, belə nəticə almaq olar ki, Səfa və Mərva dağları, Minada ilk dəfə qurban kəsmək dinin nişanələridir. Bəs bunlara ehtiram göstərmək və belə işləri əziz tutmaq Allah yanında qəbul olmuş və bəyənilmiş işdir.

***3.*** Nəticədə necə ola bilər ki, məxluqatın əşrəfi sayılan Peyğəmbəri (səlləllahu əleyhi və alih) və mə'sum İmamları (əleyhimussəlam) dinin nişanələrindən saymayaq, onların qəbirlərinin ziyarətinə getməyək və qəbirlərini tə'mir etməyək?! Məgər bu məntiqlə uyğun gəlirmi?! Hansı şəxs deyə bilər ki, Allah taala onları dinin nişanələrindən hesab etmir?!

Bütün bunlardan belə nəticə alırıq:

***1.*** Allaha yaxın adamlar xüsusən, dini yaymaq yolunda can verən şəxslər Allah dininin nişanələrindəndir.

**2.** Belə şəxslərə hörmət və ehtiram saxlamağın ən yaxşı yollarından biri də onların qəbirlərini tə’mir edib nişanələrini qoruyub saxlamaqdır.

Onu da qeyd edək ki, bu qanun bütün dini məktəblərdə icra olunur. Millətlər öz böyük şəxsiyyətlərinin adlarını qorumaqdan ötrü onların qəbirlərinə ehtiram göstərir və onları tə’mir edirlər.

**4.** Qur’ani-Kərim İslamdan qabaqkı zamanda yaşamış “Əshabi Kəhf”də olan şəxslər barəsində buyurur:

***Onların qəbirlərinin üstündə bina düzəltdik[1].***

Həmin surədə bu əhvalatla əlaqədar başqa dəstə buyurur:

***Bu işdə qalib gəlmiş başqa dəstə dedilər: Onların qəbirlərini məscid qərar verəcəyik [yə’ni orada məscid tikəcəyik][2].***

---

[1] “Кəһф” сурəси, 21-чи ajə.
[2] “Кəһф” сурəси, 21-чи ajə.

## *ŞƏRƏFLİ MƏKANLARDA QURBANLIQ*

Vəhhabilərin şiələrə tutduqları iradlardan biri də budur ki, şiələr Peyğəmbərin (səlləllahu əleyhi və alih) və İmamların qəbirlərinin yanında qurban kəsirlər. Vəhhabilərin əqidəsinə görə bu əməl haram və Allaha şirk sayılır.

***Cavab:***

Məsələ budur ki, məhrumiyyət və giriftarçılıqda olan bə’zi müsəlmanlar öz müşküllərinin həllindən ötrü Allah yanında yüksək məqamı və mənziləti olan mə’sumların və övliyaların qəbirlərinə nəzir atırlar və ya bu məkanlarda qurbanlıq kəsirlər. Bu bölmədə məsələni tək-tək araşdırsaq daha önümlü olar.

***1.*** Şiə əqidəsində fəqih və müctehidlərin fətvasına görə nəzir və ya qurbanlıq yalnız “qürbətən iləllah” olmalıdır. Yə’ni nəzir etmək və qurban kəsməklə hacətinə çatmaq istəyən ilk növbədə niyyətində “qürbətən iləllah” (Allaha yaxın olmaq niyyəti) tutmalıdır. Nəzir etməyin yolu belədir:

Əgər mənim filan hacətim düzəlsə, Allahdan ötrü mənim boynumda filan nəzir (və ya qurbanlaq) olsun.

***2.*** Şiələr bə’zən öz nəzirlərini paylamaq və ya qurbanlıq kəsməkdən ötrü İmamların və İmamzadələrin qəbirlərinin yanına gedirlər. Bə’zən nəzirlərini onların zərihlərinin (qəbirlərinin) üstünə atırlar. Lakin bu heç də nəyisə Allaha şərik qoşmaq demək deyil. Əksinə, bu nəzirlərin həmin yerdən daha tez fəqirlərin əlinə çatması əsas hədəfdir. Şiə əqidəsində hər hansı nəzir və ya qurbanlıq əgər “qürbətən

iləllah” olmasa, şər’i nəzir hesab olunmur. Maraqlanmaq istəyənlər şəriət kitablarına müraciət edə bilərlər. Bəs əsl və ümdə məsələ niyyətdir. O da “qürbətən iləllah” (yə’ni fəqət Allaha yaxın olmaq və ondan kömək istəmək). Lakin bu nəzirin hara atılması və qurbanlığın harda kəsilməsi məsələyə heç bir xələl gətirmir.

***3.*** Belə nəzirlərin oxşarı bütün müsəlmanların hər il icra etdiyi həcc əməllərində özünü daha çox biruzə verir. Hər bir hacı qurbanlıq kəsdikdə “qürbətən iləllah” niyyətini edir.

***4.*** Şiələrin belə qurbanlığı şərəfli məkanda kəsməsindən məqsəd “Allaha yaxın olmaq” və kəsdiyi qurbanlığın savabını həmin qəbir sahibinə bağışlamaqdır. Heç bir müsəlman alimi inkar edə bilməz ki, hər hansı xeyir işin savabını dünyadan getmiş şəxsə bağışlanması qəbih bir iş olsun. Əksinə, bu iş ən yaxşı xeyirxah işlərdən sayılır.

Xülasə desək, Peyğəmbər (səlləllahu əleyhi və alih), İmamlar (əleyhimussəlam) və hər hansı uca məqamlı (Allah yanında) şəxsin əvəzindən bu cür nəzir və qurbanlıqların verilməsinin şirkə heç bir oxşarlığı yoxdur.

Bütün bunlardan əlavə Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz zamanında müsəlmanlar çoxlu nəzir-niyaz və qurbanlıqlar boyun alaraq onlara əməl etmişlər. Peyğəmbər (səlləllahu əleyhi və alih) bu işin “qürbətən iləllah” olduğunu bildikdən sonra onları təsdiq etmişdir.

## *ALLAHA PEYĞƏMBƏRİN VƏ İMAMLARIN MƏQAMINA AND VERMƏK*

Vəhhabilərin müsəlmanlara qarşı küfr nisbət vermələrinin səbəblərindən biri də müsəlmanların dua vaxtı Allaha Peyğəmbərin (səlləllahu əleyhi və alih) və İmamların (əleyhimussəlam) məqamlarına and vermələridir.

***Cavab:***

***1.*** Əvvəlcədən dedik ki, Allah yanında məqam və isməti olan Peyğəmbərə (səlləllahu əleyhi və alih) və İmama, hətta alimlərə və əməlisaleh insanlara xüsusi hörmət göstərmək nəinki pis cəhət ola bilməz, hətta Allah yanında ən xoşa gələn işlərdən biridir.

Qur'ani-Məcid "Ali-İmran" surəsinin 17-ci ayəsində buyurur:

***Onlar səbr edənlər, doğru danışanlar, itaət edənlər, infaq edənlər, tövbə edənlər və sübh edənlərdirlər.***

Allah taala bu ayədə mö'min şəxsləri belə tə'rifləyir. İndi gecənin bir aləmində hər kəs dua edərkən Allaha yalvarsa ki, İlahi, Səni and verirəm, "Səhərlər günahlarının bağışlanmasından ötrü tövbə edənlərin haqqına" mənim günahlarımdan keç! Görəsən, bu əməl Allah yanında şirk sayılırmı? Məgər bizim fikir və məqsədimiz Allahdan başqasına pənah aparmaq olur və ya Allaha yalvarırıq?

***2.*** Allah taala Qur'ani-Məciddə dəfələrlə müxtəlif şeylərə, o cümlədən aya, günəşə və sair mövcudatlara and içib, hətta "Şəms" surəsində isə ardıcıl olaraq 11 dəfə and

zikr olunub. Əgər bu iş haramdırsa, bəs, onda nəyə görə Qur’anda qeyd olunub?

***3.*** Qur’ani-Məcid “Saffat” surəsinin 35-36-cı ayələrində günahkar müşrikləri belə tanıtdırır.

***Onlar o kəslərdir ki, hər zaman onlara deyilsə ki, Allahdan başqa tanrı yoxdur, təkəbbür edərlər və deyərlər: Məgər biz öz tanrımızı [bütləri] divanə bir şairin sözü ilə tərk edəcəyik?***

Ayənin məzmununa əsasən, müşrik o kəsdir ki, Allahın yeganəliyini qəbul etməsin və yalançı tanrılarından əl çəkməyərək təkəbbür göstərsinlər. Görəsən, gecənin bir aləmində Allahla münacat edərkən yalnız Allahdan kömək diləyib Ona təvəkkül edən və Allah taalanı Peyğəmbərin (səlləllahu əleyhi və alih) və mə’sum İmamların haqqına and verdirib öz günahlarından keçməsini istəyən bir müsəlman yuxarıdakı ayədəki müşriklərlə bir sayılırmı? Vəhhabilərin nəzərinə görə bəli!!!

Belə olan surətdə, yer üzündə heç kəs müsəlman olmaz. ×ünki biz müşrik sözünü ürəyimiz istədiyi kimi hər kəsə olsa, nisbət verə bilərik. Məsələn, belə də demək olar ki, müsəlman namaz qılanda Kə’bəyə tərəf baxır və Kə’bə də daşdan ibarət bir evdir. Bəs bu iş şirk sayılmalıdır! Xeyr! Vəhhabilik çadrası altında müsəlmanların sırasını dağıtmaq istəyənlərin planları baş tuta bilməz!

***4.*** ×oxlu rəvayətlərdə nəql olunur ki, Peyğəmbərlər və İmamlar Allaha layiqli məqamlara and verərək dua etmişlər. Məsələn, Həzrəti Əli (əleyhissəlam) gecə namazından sonra bu duanı oxuyarmış: *”İlahi, mən Səni and verirəm, o kəsin haqqına ki, yalnız Sənə pənah gətirib Sənə tövbə edir və Sənin qüdrətinə pənah gətirir və Sənin*

*pənahında qərar tutub və Sənin dinindən yapışıb və Səndən başqa heç kəsə ürək bağlamayıb...*[1]*"*

***5.*** Peyğəmbər (səlləllahu əleyhi və alih) kor bir kişiyə belə bir duanı öyrədir: "İlahi, Səndən istəyim var və Sənə üz gətirmişəm! Səni and verirəm, rəhmət qərar verdiyin Peyğəmbərin Mühəmmədə!..." [2]

***6.*** Əbu Səid Xidri adlı birisi Peyğəmbərdən (səlləllahu əleyhi və alih) belə bir dua öyrənir: *"İlahi, Səni and verirəm, Səndən hacət istəyənlərin haqqına...*[3]*"*

*Vəhhabilərin əsassız iddia və əqidələrindən biri də budur ki, Allahdan başqasına and içmək haramdır!*

***Cavab:***

***1.*** Allah taala təkcə "Şəms" surəsində doqquz məxluqa (Günəş, Günəşin nuruna, gündüzə, gecəyə, göyə, yerə, insanın nəfsinə) and içir.

***2.*** "Naziat" surəsində 1-3 ayələrdə;

***3.*** "Mürsəlat" surəsində 1-3 ayələrdə;

***4.*** "Büruc", "Tariq", "Qələm", "Əsr" və "Bələd" surələrində məxluqa and içilir.

***5.*** "Tin" surəsində Allah buyurur: "And olsun, əncirə və zeytunə! And olsun, Tur-Sina dağına, and olsun, bu əmin şəhərə [Məkkəyə]..."

6. "Züha" surəsi, 1-2-ci ayələr;

7. "Fəcr" surəsi, 1-4-cü ayələr;

8. "Hicr" surəsinin 72-ci ayəsində buyurur:

***Ey Peyğəmbər! Sənin canına and olsun ki, onlar öz şəhvət sərxoşluqlarında sərgərdandırlar.***

9. Peyğəmbər (səlləllahu əleyhi və alih) özü Allahdan başqasına and içib. "Səhihi Müslim" (Zəkat kitabı, 3-cü

---

[1] "Сәһифеји Әләвијјә", səh. 370.

[2] "Сүнәни Ибни Мачә", 1-чи чилд, səh. 441.

[3] "Сәһиһи Ибни Мачә", 1-чи чилд, səh. 262.

cüz, səh. 94) yazır: Birisi Peyğəmbərdən (səlləllahu əleyhi və alih) soruşur ki, ya rəsuləllah, hansı sədəqə daha fəzilətlidir? Həzrət cavabında buyurur: *"And olsun, atanın canına! Bil, o sədəqə daha əzəmətlidir ki, sağlam olasan, pula ehtiyacın ola, fəqirlikdən qorxasan, gələcəyinin fikrində olasan və eyni halda sədəqə verəsən".*

Bütün bunlar nişan verir ki, lazım olduqda əhali arasında məxluqa and içmək heç də Allaha qarşı şirk sayılmır. Əlbəttə, onu da qeyd edək ki, şiə məzhəbinə görə and içmək məsələsinə heç də tə'kid olunmur, hətta doğru işdə də Allaha and içmək məkruh sayılır. Bununla belə, yalnız qəzavət və məhkəmələrdə xüsusi şəraitdə Allaha and içməyin heç bir eybi yoxdur.

## *ŞƏFAƏT*

Vəhhabilərin əqidələrindən biri də budur ki, onlar şəfaət məsələsini düzgün təfsir etmirlər. Onların nəzərincə şəfaət yalnız Axirətdə ola bilər. Amma bu dünyada heç kəs Peyğəmbərin (səlləllahu əleyhi və alih) və övliyaların şəfaətinə göz dikməli deyillər. Hər kəs belə şəfaəti dünyada istəsə, Allaha şərik qoşur və kafir sayılır!

***Cavab:***

Bütün müsəlmanlar Qur’anın aşkar bəyanına əsasən mö’təqiddirlər ki, Allah istədiyi ləyaqətli şəxsə şəfaət məqamını verəcək. Bu şəfaətin Qiyamətdə olmasında heç bir ixtilafi nəzər yoxdur. Görəsən, bu dünyada Peyğəmbərin (səlləllahu əleyhi və alih) elə bir məqamı var ki, Allaha dua etsin, Allah da hər hansı bir günahkarın günahından keçsin?

Ayələrin və rəvayətlərin təsdiqinə əsasən, bu iş heç də qəbih deyil. Allah bu məqamı həm bu dünyada, həm də Axirətdə Peyğəmbərə (səlləllahu əleyhi və alih) vermişdir. İndi də bə’zi nümunələrə diqqət etməklə vəhhabilərin iddialarının yanlış olmasını görərik:

***1.*** Allah taala “Nisa” surəsinin 64-cü ayəsində buyurur:

***Əgər onlar özlərinə zülm etmiş olanda sənin yanına gəlsəydilər, Allah dərgahından bağışlanmaq tələb etsəydilər və <u>Peyğəmbər də onlardan ötrü bağışlanmaq duası</u> etsəydi, Allahı ən çox tövbə qəbul edən [bağışlayan] kimi tanıyardılar.***

Ayədə hər şey aydın zikr olunub. Görəsən, vəhhabilər Qur’anı açıb oxumurlar və bu ayəyə rast gəlməyirlər? Hər

bir aqil şəxsə ayədən mə'lum olur ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) dünyada olan halda da Allahın izni ilə günahkarlara şəfaət verə bilər və Allahdan onlar üçün bağışlanmaq diləyə bilər. Bu işdə heç bir şirk yoxdur. Onu da qeyd edək ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) dünyadan köçməsi səbəb olmaz ki, müsəlmanlar bu dünyada ondan şəfaət istəməsinlər. ×ünki İslamda ölüm heç olmaq və aradan getmək deyildir!

***2.*** Qur'ani-Məcid Həzrəti Yə'qub Peyğəmbərin (əleyhissəlam) əhvalatını zikr edərkən övladlarının günahkar olduğunu bildikdən sonra onların atalarından şəfaət istəmələrini belə bəyan edir:

***Ey ata! Allahdan bizim günahlarımıza görə bağışlanmamızı istə! Həqiqətən, biz səhv yolda olmuşuq***[1].

Yə'qub (əleyhissəlam) onların cavabında buyurur:

***Tezliklə Allaha sizin bağışlanmağınızdan ötrü dua edəcəyəm!***[2]

Ayə aşkarcasına nişan verir ki, Həzrəti Yə'qubun (əleyhissəlam) övladları atalarının şəfaəti əsasında bağışlanılırlar və bu iş heç də Axirətdə olmur, əksinə, dünyada olarkən baş verir.

***3.*** Qur'ani-Məcid "Mühəmməd" surəsinin 19-cu ayəsində Peyğəmbərinə (səlləllahu əleyhi və alih) göstəriş verərək buyurur:

***Ey Peyğəmbər! özünün günahının və mö'minlərin bağışlanmasından ötrü Allah dərgahından bağışlanmaq tələb et!***

***4.*** "Tövbə" surəsinin 103-cü ayəsində buyurur:

---

[1] «Јусиф" сурәси, 97-чи ајә.

[2] "Јусиф" сурәси, 98-чи ајә.

***Onlar barəsində [zəkat ödəyənlər] dua et və bağışlanmalarını dilə ki, sənin dua etməyin onların rahatlıqlarına səbəb olur.***

**5.** “Nisa” surəsinin 85-ci ayəsində buyurur:

***Hər kəs başqası üçün yaxşı şəfaət etsə, ondan bəhrələnəcək.***

***6.*** Rəvayətlərdə də dünyada Peyğəmbərdən (səlləllahu əleyhi və alih) şəfaət istəmək haləti qeyd olunmuşdur. İbni Əbbas nəql edir ki, Həzrəti Əli (əleyhissəlam) Peyğəmbəri (səlləllahu əleyhi və alih) qüsl və kəfən edərkən onun üzünü açıb belə buyurdu: *Atam, anam sənə qurban, həyat və ölümü paklıqla keçirtdin... Bizi də Allah yanında yada sal!*

Bütün bunlar və onlarla başqa dəlillər isbat edir ki, vəhhabilərin bu fikri də İslam dininə zərbə vura bilməz. İslamda hər şey açıq-aydın araşdırılmış Peyğəmbər (səlləllahu əleyhi və alih) və İmamlar (əleyhimussəlam) lazım olan şeyləri müsəlmanlara çatdırmışlar. Əslində belə fikirlər müsəlmanların birliyini dağıtmaqdan başqa bir şeyə qulluq etmir.

## *ŞİƏLƏRƏ VURULAN DAHA BİR BöHTAN!*

Axır vaxtlarda bir çox qərəzli şəxslər (o cümlədən vəhhabilər) tərəfindən şiə məzhəbi barəsində düzgün olmayan söz yayılmışdır. O da budur ki, onların nəzərincə şiələr əldə olan bu günkü Qur’ana əsl Qur’an kimi baxmırlar. Belə iddia edirlər ki, şiələrin fikrincə Peyğəmbərin (səlləllahu əleyhi və alih) qızı Fatimeyi Zəhranın (səlamullahi əleyha) bir “Müshəf”i (kitabı) var və əsl Qur’an odur. Onlar bu Qur’anı “Müshəfi Fatimə” adlandırırlar!!!

İndi də əsl məsələ ilə yaxından tanış olaq. Əvvəlcə qeyd etdiyimiz kimi insanın inhiraf yola düşməsinin əsl səbəblərindən biri də onun həqiqətdən xəbərdar olmamasıdır. “Müshəf” kəlməsi ərəb dilində hansı mə’nadadır?

“Müshəf” ərəb dilində kitab, vərəqə və ya kitabın üzünün birinci vərəqinə deyilir[1]. Beləliklə, “Müshəfi Fatimə” Qur’an mə’nasında yox, Fatimənin kitabı mə’nasındadır.

Amma əsl məsələ budur ki, şiə məzhəbində Fatimənin kitabı adlı kitab var, lakin bu kitab heç də Qur’ani-Məcid deyildir. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) vəfat etdikdən sonra Həzrəti Fatimə (səlamullahi əleyha) çox qəm-qüssə çəkir. Hətta gecə-gündüz atasını yad edib ağlayır. O, atasını hədsiz dərəcədə sevirdi. Həzrəti Fatimənin Allah yanında uca məqamı olduğuna görə Allah

[1] “Лисанул-әрәб”, “Мүфрәдати Гур’ан”, Мә’чәмул-вәсит”.

taala bu qəm-qüssəni ondan uzaqlaşdırmaqdan ötrü ona mələikə göndərir. Bu mələikə Fatiməyi Zəhra (səlamullahi əleyha) ilə söhbət edir və ona təsəlli verir. Bununla da onun qəm-qüssəsi azalır. Bu mətləb barəsində şiələrin "Üsuli Kafi" kitabında 10-a yaxın hədis vardır. Belə olan halda Fatimə (səlamullahi əleyha) məsələni Əli əleyhissəlama xəbər verir. İmam ona tapşırır ki, hər vaxt mələikə gəlsə, ona da xəbər versin və onun dediklərini yazsın. Əli (əleyhissəlam) bu minvalla mələikənin qeybi xəbərlərini bir kitab şəklində cəm edir. Tarixdə Həzrəti Fatiməyə (səlamullahi əleyha) mələikə ilə həmsöhbət olduğuna görə "Mühəddisə" ləqəbi verilib.

Maraqlı burasıdır ki, görəsən, bu kitabın mətni nədən ibarətdir?

Bu kitabın mətni hədislərə əsasən, aşağıdakı mövzulardan ibarətdir:

***1.*** Keçmiş hökumətlər barəsində xəbərlər;
***2.*** Göylər və mələklər barəsində xəbərlər;
***3.*** Peyğəmbərlər və onların tərəfdarları haqqında;
***4.*** ölkələr və onların əhalisi;
***5.*** Zülmkarlar və onların aqibəti;
***6.*** Mə'sum İmamlar və onların vəziyyəti haqqında;
***7.*** Behişt və Cəhənnəm əhli barəsində;
***8.*** Qur'an, Tövrat və İncil haqqında;
***9.*** Yer kürəsi barəsində.

Yenə də qeyd edirik ki, şiələrin əqidəsinə görə bu kitab heç də Qur'ani-Kərim deyildir. Bizim bir Qur'anımız var, o da yalnız İslam Peyğəmbərinə (səlləllahu əleyhi və alih) nazil olub. Vəhhabilər əsl həqiqətdən xəbərləri olmadan şiələrə böhtan atırlar.

***Sual: Bəs o kitab indi haradadır?***

***Cavab:***

“Müshəfi Fatimə” hədislərə əsasən, İmam Əli əleyhissəlamdan sonra İmam Həsən əleyhissəlama, daha sonra İmam Hüseyn əleyhissəlama nəhayət, mə’sum İmamlardan keçməklə on ikinci İmamımız İmam Zaman əleyhissəlamın yanındadır və o Həzrətin zühurundan sonra üzə çıxacaqdır.

Həmçinin, şiələr bu əqidədədirlər ki, hazırkı Qur’ani-Məcid içində heç bir dəyişiklik olmadan İslam Peyğəmbərindən (səlləllahu əleyhi və alih) bizə çatan Qur’andır. Şiə alimləri Qur’ani-Məcid barəsində iki mindən artıq təfsir yazmışlar. Bu təfsirçilər barəsində mə’lumat almaq üçün doktor Əqiqi Bəxşayeşinin 5 cildlik yazdığı “Təbəqati müfəssirani şiə” kitabına müraciət edə bilərsiniz.

## *ƏHLİ-BEYT ƏLEYHİSSƏLAMA ƏZADARLIQ*

Son vaxtlarda şiələrə qarşı geniş təbliğat sistemi işə düşmüşdür. Müsəlmanların əqidələrində şübhələr icad etmək və onları öz dinlərində zəiflətmək istəyirlər. Əlbəttə, bu işin arxasında böyük qüvvələr vardır. Bizim məqsədimiz bu məsələdən kənarda olduğuna görə yalnız şübhəni araşdırıb aradan aparmaq niyyətindəyik. Əvvəlcədən qeyd etdiyimiz kimi Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəfatından bir əsr keçməmiş özlərini müsəlman cildinə salmış Müaviyə və Yəzid kimi şəxslərin hiyləsi ilə İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) ağuşunda böyümüş övladını yə’ni, İmam Hüseyn əleyhissəlamı faciəli şəkildə şəhadətə yetirir və ailə-uşaqlarını “xarici”lər adı ilə küçə-bazarlarda əli bağlı gəzdirirlər. Əlbəttə, məl’un Yəzid sonradan öz səhvinə (hiylə üzündən) e’tiraf etsə də, artıq bəşəriyyətdə görünməmiş bir faciə baş vermişdi. Faciə haqqında danışmağın yeri deyil. ×ünki İslam tarixi ilə azca da olsa tanış olanlar özləri bu faciədən xəbərdardırlar.

O gündən sonra müsəlmanlar tutduqları işdən peşiman olub bu pak və ismətli Əhli-beyt əleyhimussəlama matəm mərasiminin ildönümünü qeyd etməyə başlayırlar. Onu da qeyd edək ki, faciədən bir az sonra bu faciənin intiqamını qatillərdən almaqdan ötrü çoxlu qiyamlar olmuşdur. Bu faciə eyni halda İmam Hüseyn əleyhissəlamın qanı bahasına qələbəsi hesab olunduğu kimi müsəlmanların, xüsusilə şiələrin bu haqq yolu davam etdirməsinə yə’ni əmr be mə’ruf və nəhy əz münkər şüarının cəmiyyətdə

layiqincə icra edilməsinə ən gözəl nümunə idi. İmam Hüseyn (əleyhissəlam) özündən sonra zülmə, təcavüzə və zalimlərə qarşı mübarizə aparmaq məktəbinin özəlini qoymuşdur. Əməli şəkildə isbat etmişdir ki, qan bahasına da olsa, zalimə qalib gəlmək olar və haqqı bəyan etmək mümkündür. Bu hadisə barəsində tarixdə yüzlərlə kitablar yazılmış və yazılmaqdadır.

Son vaxtlarda bə’zi qərəzli şəxslər belə bir şübhə yaradırlar ki, nəyə görə şiələr İmam Hüseyn əleyhissəlama göz yaşı tökürlər. Bu göz yaşlarının İslama faydası yoxdur!!!

Bu şübhəni aradan aparmaq ötrü bir neçə məsələyə diqqət yetirməliyik.

## *PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) DöVRÜNDƏ ƏZADARLIĞA MÜNASİBƏT*

Əvvəla heç bir tarixi və İslam mənbələrində mərsiyə demək və ölülərə ağlamaq qadağan olunmayıb, lakin bunun əksi olub. Bundan əlavə İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) dövründə müsəlmanlar öz ölülərinə həmişə ağlamış və mərsiyələr qoşmuşlar. Amma heç vaxt eşidilməyib ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) bu işin qarşısını alsın. Hər kəs öz əzizləriin əzalarında azad şəkildə ağlamışdır.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) özü dünyadan köçdükdə Həzrətin ən yaxın əshabları ona mərsiyə deyib ağlayırdılar. O cümlədən, Fatimeyi Zəhra (səlamullahi əleyha) atasının vəfatından sonra çox qəm-qüssə çəkib ağlayırmış. Həzrəti Əli (əleyhissəlam) vəfat etdikdən sonra İmam Həsən (əleyhissəlam) ağlamış və xütbə oxuyaraq atasını tə’rifləmişdir. İmam Zeynəlabidin (əleyhissəlam) də atasının qəbri üstündə çox vaxtlar oxşama deyib ağlayırmış.

## *İSLAM PEYĞƏMBƏRİ (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) öZÜ AĞLAYIR*

Tarix səhifələrində dəfələrlə nişan verilib ki, bəşəriyyəti səadətə də’vət edən Allahın elçisi Mühəmməd (səlləllahu əleyhi və alih) dəfələrlə əza məclislərində və xüsusi hallarda ağlamış, həmçinin, ağlamağa icazə vermişdir. İndi də qısa şəkildə tarixə nəzər salaq.

***1.*** İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) İmam Hüseyn əleyhissəlamın şəhadətindən xəbər vermiş, ona ağlamış və bu faciəyə görə çox narahat olmuşdur.

***2.*** Əhməd Hənbəli öz “Müsnəd”ində (1-ci cilddə, səhifə 58-də) Əli əleyhissəlamın dilindən Peyğəmbərin (səlləllahu əleyhi və alih) İmam Hüseyn əleyhissəlamın faciəli şəhadətinin Cəbrail vasitəsilə xəbərindən sonra o Həzrətin şiddətlə ağlamasını nəql edir.

***3.*** Hədisdə gələn xəbərlərə görə Həzrəti Adəm, Nuh, İbrahim, İsmayıl, Musa, İsa, Zəkəriyya, Yəhya, Xızr və Süleyman (əleyhimussəlam) İmam Hüseyn əleyhissəlamın müsibətinə qabaqcadan ağlamışlar. (“Biharül-ənvar”)

***4.*** Peyğəmbər (səlləllahu əleyhi və alih) zövcəsi Xədicə və əmisi Əbu Talibin dünyadan köçən ilini “qəm ili” adlandırmış və onların əzasına ağlamışdır. Ənəs ibni Malik nəql edir ki, döyüşlərin birində Qur’an qariləri şəhadətə yetirlər. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) bu hadisədə ağlamış və bir aya yaxın qəmli şəkildə gəzmişdir[1].

---

[1] “Сәһиһи Бухари”, бабе мүсибәт.

Günlərin birində Peyğəmbərin (səlləllahu əleyhi və alih) müqabilinə cənazə qoyurlar. Onun qohumları ağlamağa başlayır. ömər şallaq götürüb onları vurmaq istəyir. Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurur: ***"ömər nə edirsən?! Qoy ağlasınlar. Onlar müsibət görüblər, gözləri yaşlıdır".***

***5.*** Qur'ani-Məciddə Həzrəti Yə'qubun ağlamaqdan gözlərinin tutulmasına işarə olunur[1].

---

[1] "Јусиф" сурәси, 84-чү ајә.

## *İMAM HÜSEYN ƏLEYHİSSƏLAMA ƏZADARLIĞIN FƏLSƏFƏSİ*

***1.*** Əhli-beyt əleyhimussəlama o cümlədən İmam Hüseyn əleyhissəlama təşkil olunan məclislər İslam konfransı kimi bir şeydir. Bu məclislərdə yalnız İslam prinsiplərindən, Peyğəmbər (səlləllahu əleyhi və alih) və onun Əhli-beyti (əleyhimussəlam) barəsində söhbətlər olunur və İslamın qanunları bəyan olunur.

***2.*** Əhli-beyt əleyhimussəlama ağlaşma məclislərinin keçirilməsi İslam dininə də’vət etməyin ən yaxşı yoludur və qəflətdə olan müsəlmanları oyatmaqdın ötrü ən güclü vasitədir. Bu məclislər qəlblərə dərin tə’sir qoyur və insanı haqqa səsləyir.

***3.*** Belə məclislər vasitəsilə İslam maarifi yayılır və qəlblər şəfa tapır. Bu məclislərdə Əhli-beyt əleyhimussəlama Allah tərəfindən verilən xüsusi elmləri müsəlmanlara tanıtdırılır. Heç bir təbliğat vasitəsi müsəlmanları bu məclislərdə olan kimi bir yerə yığa bilməz. Uşaqdan tutmuş ağsaqqallara qədər diqqətlə belə məclislərdə iştirak edirlər. Bu da İslam dininin təbliğ olunmasına şərait yaradır.

***4.*** Belə məclislərdə haqq yolunda necə şəhadətə yetmək tə’lim olunur və zülmkarlığa qarşı mübarizəyə qüvvət verilir.

***5.*** Müsəlmanlar Əhli-beyt əleyhimussəlamın çəkdiyi müsibətləri gördükdə və eşitdikdə öz müşküllərini və müsibətlərini unudur, bir növ təskinlik tapırlar.

***6.*** Nəhayət, bu yolda sərf olunan xərclər müsəlman fəqir-füqəralarına, o cümlədən məscidlərin tikilməsinə və başqa xeyriyyə işlərinə sərf olunur. Bütün bunların hamısının qayıdışı İslam dininə xidmət, onu yaymaq və Allahın razılığını ələ gətirməkdir.

Bəhsin sonunda onu da qeyd edək ki, İslam alimləri, o cümlədən bütün şiə mərceyi-təqlidçiləri istər keçmişdə, istərsə də hazırdakıların ittifaq nəzərləri vardır ki, Əhli-beyt əleyhimussəlama aid olan məclislərin keçirilməsinin İslam dininə çox böyük faydaları vardır. Xüsusilə, İmam Hüseyn əleyhissəlama əzadarlıq məclisini keçirmək, həm o faciənin yaddan çıxmamasına, həm də Allah yolunda şəhid olmaq məktəbinin ən'ənələrinin təzələnməsinə səbəb olur. Bu barədə yalnız böyük İslam inqilabının rəhbəri İmam Xomeyni Həzrətlərinin buyurduğu kəlamların bir hissəsini qeyd etmək istərdik. İmam buyurur: *"Pərvərdigari aləm elə ki, görür oyunbazlar öz yollarını azıb dinin əsaslarını aradan aparırlar və başqa tərəfdən də bir neçə nəfərdən savayı mö'min qalmayıb, bu vaxt İmam Hüseyn ibni Əli əleyhissəlamı seçir və onun fədakarlıqları ilə müsəlmanları oyadır.*

*Onun əzadarlığının çoxlu savabı var. Ona görə ki, bununla müsəlmanlar qəflətdən oyanır, əsası zülmkarlıq və ədalətsizliyi aradan aparmaq üzərində olan Kərbəla faciəsi yaddan çıxmamalıdır*[1]".

[1] "Әзадаран әз дидгаһе мәрчеијјәте шиә", səh. 14.

## *TORPAĞA SƏCDƏ ALLAH DƏRGAHINDA TƏVAZÖ’ HALININ ƏN NƏHAYƏTİDİR*

Bə’ziləri, o cümlədən vəhhabilər şiələrə torpağa səcdə etmələrinə görə irad tutur və bunun şirk olduğunu iddia edirlər.

***Cavab:*** Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, vəhhabilərin təbliğatlarının mənfi cəhətlərindən biri də budur ki, məsələ üzərində dərindən düşünmədən əsassız olaraq müsəlmanları kafir və ya müşrik kimi qələmə verirlər. Bu da müqəddəs İslam qayda-qanunları ilə heç də uyğun deyildir. İndi də əsl məsələyə qayıdaq. Əvvəlcə Allaha səcdənin tə’rifini düzgün vermək lazımdır sonra isə şübhəyə cavab verilməlidir.

İslam dinində “Allaha səcdə” - yə’ni, insanın aşkar şəkildə özünü Allah dərgahında təvazö’ halına gətirməsi və bədəninin ən şərəfli qismətini yə’ni, alnını Allah qarşısında yerə qoymasıdır. Bu da insanın Allah dərgahında bəndəliyinin ən son dərəcəsi sayılır. Ona görə də Qur’ani-Məcid təkcə insanın yox, hətta bütün mövcudatın Allaha səcdə etdiyini bildirir.

***Göylərdə və yerdə nə varsa hamısı Allaha səcdə edir*[1]*.***

İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) adəti və rəftarı bütün müsəlmanlar üçün hüccətdir. Qur’ani-Kərim buyurur:

---

[1] “Рə’д” сурəси, 15-чи ajə.

***Həqiqətən, Allahın rəsulu Allaha, Qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir*[1]*.***

Əhli-beyt (əleyhimussəlam) məktəbinin tərəfdar-ları İslam Peyğəmbəriinin (səlləllahu əleyhi və alih) adətinə və rəftarına əsasən, yalnız torpağa və torpaqda bitənlərə (yeyilən və geyilən şeylərə yox) səcdə etməyi rəva bilirlər. Torpağa səcdə etmək Allah dərgahında insanın bəndəliyinin ən aşkar nümunəsidir. Bə'ziləri nədənsə torpağa səcdəni Allaha şirk bilirlər. Onların cavabında deyilməlidir ki, "Allahdan ötrü səcdə etmək" ifadəsi ilə "torpağa səcdə etmək" ifadəsi arasında aşkarcasına fərq vardır. Belə nəzərə gəlir ki, torpağa səcdəni şirk hesab edənlər bu iki mə'nanın fərqinə baxmırlar.

Beləliklə, şiələr alınlarını torpağa qoymaqla yalnız Allahdan ötrü səcdə edirlər. Onlar torpağı böyük tutmaqdan ötrü səcdə etmirlər, çünki səcdə yalnız Allahdan ötrü olmalıdır.

O da mə'lumdur ki, bütün müsəlmanlar namaz vaxtı hər hansı bir şeyə səcdə edirlər. Yə'ni alınlarını nəyinsə üstünə qoyurlar. Lakin əsas məqsəd şiələrin niyyətində olduğu kimi yalnız Allahdan ötrü səcdə etməkdir. Kə'bədə və Mədinədə bütün zəvvarlar alınlarını Məscidülhəramın daşlarının üstünə qoyurlar. Lakin onların hədəfi yalnız Allahdan ötrü səcdə etməkdir və bu işdə heç bir şirk yoxdur. Bəs belə nəticə alırıq ki, torpağa, bitkiyə və başqa şeylərə səcdə etmək heç də həmin şeyə ibadət etmək sayılmır. İndi də qısa olaraq torpağa və yerdən bitib

---

[1] "Əhзаб" сурəси, 21-чи ajə.

insanların yeməyi və geyimi olmayan şeylərə səcdə etməyin dəlillərinə nəzər salaq[1].

***1.*** İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) öz adəti ilə və namaz qılması ilə nişan vermişdir ki, torpağa səcdə etmək lazımdır. Əhli-sünnət kitablarında Peyğəmbərdən (səlləllahu əleyhi və alih) belə bir hədis nəql olunur:

*Torpaq mənim üçün səcdə yeri və pakizə qərar verilmişdir[2].*

***2.*** Peyğəmbər (səlləllahu əleyhi və alih) torpağa səcdə etməyi (sünni mənbələrində) əmr buyurmuşdur. Ümmü Sələmə Peyğəmbərdən (səlləllahu əleyhi və alih) belə nəql edir: Peyğəmbər (səlləllahu əleyhi və alih) buyururdu:

*"Allahdan ötrü alnını torpağa qoy[3]".*

***3.*** Yenə də əhli təsənnün mənbələrində oxuyuruq: Əhməd ibni Şüeyb Nəsai Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabəsi olan Əbu Səid Xidridən belə nəql edir: "İki gözlərimlə torpağın izini (əsərini) Peyğəmbərin (səlləllahu əleyhi və alih) alnında və burnunda (namazdan sonra) müşahidə etdim[4]".

---

[1] Гур'ани-Мәчиддә ајдын вә дәгиг шәкилдә һансы шејә сәчдә етмәк, јә'ни сәчдә вахты алны нәјин үстүнә гојмаг дәгиг бәјан олунмајыб. Она көрә дә бу мәсәлә Пејғәмбәрин (сәлләллаһу әлејһи вә алиһ) вә Әһли-бејт әлејһимуссәламын көстәриши әсасында олмалыдыр.

[2] "Кәнзүл-үммал", ч. 7, сәһ. 465; "Әл-Мүсәнниф", ч. 1, сәһ. 392 вә "Иршадус-Сари", ч. 1, сәһ. 405.

[3] "Сәһиһи Бухари", ч. 1, сәһ. 91; "Сүнәни Бејһәги", ч. 1, сәһ. 212; "Сәһиһи Мүслим", ч. 1, сәһ. 371; "Сүнәни Нәсаи", ч. 1, сәһ. 210 вә "Сүнәни Тирмизи", ч. 2, сәһ. 131.

[4] "Сүнәни Нәсаи", ч. 2, сәһ. 208; "Сәһиһи Бухари", "Сүнәни Бејһәги" вә "Сүнәни Әби Давуд".

***4.*** Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələri alınlarını səcdə zamanı torpağa (türbət) qoyurdular[1].

Bütün bu dediklərimiz əhli sünnət mənbələrində aşkar şəkildə qeyd olunmuşdur. Bizim əsas dəlilimiz İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alih) və mə’sum İmamların (əleyhimussəlam) torpağa səcdə etmələridir. Onu da qeyd edək ki, İmam Hüseyn əleyhissəlamın türbətinə səcdə etməyin daha çox savabı vardır. Bu da ona görədir ki, Allahın sevimli bəndəsi və Peyğəmbərin (səlləllahu əleyhi və alih) əziz övladıdır. Onlara hörmət göstərmək əvvəlki bəhslərdə qeyd etdiyimiz kimi Allahın nişanələrinə hörmət əlamətidir.

Bəhsimizin sonunda Allahdan diləyirik ki, bizi Qur’ani-Məcidin göstəriş verdiyi yolda müvəffəq olmağa tofiq versin ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) və Əhli-beyt əleyhimussəlamın yolunu davam etdirə bilək. İlahi, Qur’anda buyurduğun kimi Əhli-beyt əleyhimussəlamın məhəbbətini bizlərin qəlbində daha da çoxalt!

***Ey Peyğəmbər! De ki: Mən sizdən bunun [risaləti təbliğ etməyimin] müqabilində Əhli-beytimə məhəbbətdən başqa bir şey istəmirəm[2].***

Əlhəmdülillahi rəbbil-aləmin!

---

[1] “Әс-Сүнәнүл-Күбра”, ч. 2, сәһ. 105; “Мүстәдрәки Һаким”, ч. 1, сәһ. 270; “Сүнәни Бејһәги”, ч. 2, сәһ. 103.

[2] “Шура” сурәси, 23-чү ајә.

## *MÜNDƏRİCAT*


**MÜQƏDDİMƏ 2**
**MÜƏLLİFDƏN 5**
**MÜXTƏLİF İSLAMİ MƏZHƏBLƏRİN YARANMASINA QISA BİR BAXIŞ 7**
**ƏRƏBİSTAN 10**
**ƏRƏBİSTANIN ƏHALİSİ 10**
**VƏHHABİYYƏT öZÜNÜ "SƏLƏFİYYƏ"NİN DAVAM×ISI HESAB EDİR 12**
**VƏHHABİLİK FİRQƏSİNİN ƏSASINI QOYAN KİMDİR? 14**
**İBNİ TEYMİYYƏ KİMDİR? 14**
**VƏHHABİLİYİN İLK YAYILMA MƏRKƏZİ 17**
**ŞEYX MÜHƏMMƏD İBNİ ƏBDÜLVƏHHAB BARƏSİNDƏ BİR NE×Ə SUAL-ÚAVAB 19**
**ŞEYX MÜHƏMMƏD İBNİ ƏBDÜLVƏHHABIN HƏYATI 21**
**NƏYƏ GöRƏ ƏRƏBİSTANA SƏUDİYYƏ ƏRƏBİSTANI ADI VERİLİB? 23**
**VƏHHABİLƏRİN MÜHARİBƏLƏRİ 25**
**MƏKKƏYƏ YÜRÜŞ 25**
**VƏHHABİLƏRİN MƏDİNƏYƏ YÜRÜŞÜ 27**
**VƏHHABİLƏRİN NƏÚƏFÜL-ƏŞRƏFƏ HÜÚUMU 28**
**VƏHHABİLƏRİN KƏRBƏLAYA YÜRÜŞÜ 29**
**OSMANLI HöKUMƏTİNİN ALİ SƏUDLA (VƏHHABİLƏRLƏ) MÜBARİZƏSİ 32**
**VƏHHABİLƏRİN BƏ'Zİ E'TİQADLARINA QISA BİR BAXIŞ 33**
**VƏHHABİLƏRİN ƏQİDƏSİNƏ GöRƏ TöVHİD VƏ ŞİRK 37**
**VƏHHABİLƏRİN E'TİQADINA GöRƏ MƏ'SUM İMAMLARIN, BöYÜK ŞƏXSİYYƏTLƏRİN VƏ PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) QƏBRİNİN ZİYARƏTİNƏ GETMƏK HARAMDIR! 40**
**QƏBİR YANINDA NAMAZ QILMAQ BARƏSİNDƏ VƏHHABİLƏRİN NƏZƏRİ 43**

**VƏHHABİLƏR PEYĞƏMBƏRDƏN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) YADİGAR QALAN ŞEYLƏRƏ VƏ YA O HƏZRƏTİN QƏBRİNƏ ƏL SÜRTMƏYİ HARAM BİLİRLƏR! 45**
**DöRD ƏHLİ SÜNNƏT MƏZHƏBİ RƏHBƏRLƏRİNİN PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) QƏBRİNİN ZİYARƏTİ BARƏSİNDƏ 47**
**ƏHLİ SÜNNƏT KİTABLARINDA PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) ZİYARƏTİNDƏ OLAN MÜSTƏHƏBB ƏMƏLLƏR 49**
**QƏBRİN ÜSTÜNÜN DÜZƏLMƏSİ BARƏSİNDƏ VƏHHABİLƏRİN NƏZƏRİ 51**
**ŞƏRƏFLİ MƏKANLARDA QURBANLIQ 54**
**ALLAHA PEYĞƏMBƏRİN VƏ İMAMLARIN MƏQAMINA AND VERMƏK 56**
**ŞƏFAƏT 60**
**ŞİƏLƏRƏ VURULAN DAHA BİR BöHTAN! 63**
**ƏHLİ-BEYT ƏLEYHİSSƏLAMA ƏZADARLIQ 66**
**PEYĞƏMBƏRİN (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) DöVRÜNDƏ ƏZADARLIĞA MÜNASİBƏT 68**
**İSLAM PEYĞƏMBƏRİ (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH) öZÜ AĞLAYIR 69**
**İMAM HÜSEYN ƏLEYHİSSƏLAMA ƏZADARLIĞIN FƏLSƏFƏSİ 71**
**TORPAĞA SƏÚDƏ ALLAH DƏRGAHINDA TƏVAZö' HALININ ƏN NƏHAYƏTİDİR 73**